QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 219 (6183) 8 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Bizim üçün bu müharibə, eyni zamanda onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir"

*Prezident İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Bax 2

## "TRT Haber": Azərbaycan qazandığı zəfərlə bölgədə yeni əməkdaşlıq mühiti yaradıb

*Türkiyənin "TRT Haber" telekanalı Azərbaycan-Türkiyə münasibətlərinə dair növbəti veriliş yayımlayıb. Verilişdə qeyd edilib ki, Azərbaycan Ordusunun cəbhədə qazandığı zəfərlə bölgədə yeni bir əməkdaşlıq mühiti yaranıb.*




Bax 5

## Misirli professor: Prezident İlham Əliyev İslam tarixində müzəffər sərkərdə kimi qalacaq



*Azərbaycan Prezidenti İlham Əliyev İslam tarixində müzəffər sərkərdə kimi qalacaq. Mən onu İslam aləminin xilaskarı olmuş Səlahəddin Əyyubi kimi tarixi şəxsiyyətlərlə müqayisə edərdim. Azərbaycan Prezidenti torpaqları işğaldan azad etməklə yanaşı, həm də İslam mədəni irsinin bir...*

Bax 5

## Lavrov: Qarabağ münaqişəsinin qaynar fazasından çıxırıq



## Ermənistandan Azərbaycan ərazisinə axan çaylara zəhərli maddələr tökülür



## "Dini məbədin donuz tövləsi kimi istifadə edilməsi dəhşətli, misli görünməmiş vəhşilikdir"

*Gəncədə erməni terroru nəticəsində böyük dağıntıların yarandığı əraziyə və Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edən İtaliya parlamentinin nümayəndə heyətinin üzvləri öz təəssüratlarını sosial şəbəkələrdəki hesablarında paylaşıblar...*




Bax 6

## Mövlud Çavuşoğlu: "Regionda baş verən normallaşma prosesi Ermənistanın da xeyrinə olacaq"

Bax 6

*Qafqazda sabitlik və iqtisadi layihələrdən faydalanmaq əvəzinə Azərbaycan torpaqlarının işğalını davam etdirməyə üstünlük verən Ermənistanın və problemin siyasi həllində maraqlı olmayan dairələrin məqsədyönlü siyasəti səbəbindən Dağlıq Qarabağ münaqişəsi 30 ilə yaxın davam edib. AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Antalyanın Akdeniz Universitetində...*



## "Barselona"dan son 33 ilin ən pis startı



Bax 16

## Ermənistanda vətəndaş müharibəsinin başlanacağı tarix bəllidir



Bax 12

## Azərbaycanda komendant saatı bu tarixdə ləğv ediləcək



Bax 6

# “Bizim üçün bu müharibə, eyni zamanda onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir”

## Prezident İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:***

-Xoş gəlmisiniz. Mən sizi ürəkdən salamlayıram. Şadam ki, siz Azərbaycana səfər edirsiniz. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz. Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Hesab edirəm ki, siyasi əlaqələr ən yüksək səviyyədədir. Mənim bu ilin əvvəlində İtaliyaya etdiyim dövlət səfəri bunun bariz nümunəsidir. Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda, Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi.

Bildiyiniz kimi, iki il bundan əvvəl İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda rəsmi səfərdə idi. Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Bizim humanitar sahə ilə bağlı da böyük planlarımız var və artıq bir çox reallaşan layihələrimiz var. İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək. Mən bu məsələni diqqətimdə saxlayıram və mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məlumatlar verilir. Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər.

Mən, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, siz həm Gəncəyə, həm Ağdama səfər etmisiniz, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətləri görmüsünüz. Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub. Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutmuşdur. Bu, hərbi cinayətdir və bu cinayətə görə Ermənistan rəhbərliyi cavab verəcək. Müharibə zamanı 94 mülki şəxs həlak olmuşdur, 400-dən çox yaralanmışdır. Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir. Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər.

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Amma demək olar ki, Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb, Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır. Ona görə bu rayonlarda bəzi yaşayış məntəqələrində bəzi evlər qalıb. Orada ermənilər yaşayırdılar. Ancaq noyabrın 10-dan dekabrın 1-nə qədər - o vaxt çərçivəsində onlar bu bölgələri tərk etməli idilər - onlar orada da vəhşilik törətdilər, evləri yandırdılar, sökdülər. Halbuki o evləri onlar yox, o vaxta qədər - 30 il bundan əvvəl orada yaşamış azərbaycanlılar tikmişdilər. Meşələri yandırdılar, ağacları kəsdilər, yəni, dünyanın gözü qarşısında vəhşilik törətdilər. Beynəlxalq media qurumları da bu barədə reportajlar hazırlayıb mətbuata vermişlər. Bütün dünya indi gördü ki, Azərbaycan hansı vandallarla üzüzə qalmışdır və bu vandallara qarşı təkbaşına müharibə apararaq öz ərazi bütövlüyünü bərpa etmişdir.

İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səferiniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Bir daha xoş gəlmisiniz.

İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosato:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə sağ olun. Sizin ölkəniz üçün olduqca xüsusi əhəmiyyət kəsb edən belə bir dövrdə burada olmaqdan məmnunluq hissi duyuruq. Buna görə də Sizə olan dostluq hisslərimizi ifadə etmək üçün əslində, bu səfərə çoxdan hazırlaşırdıq. Dedik ki, belə bir əhəmiyyətli dövrdə biz mütləq Sizin ölkənizə gəlməliyik. Zati-aliləri, Sizin də söylədiyiniz kimi, bizim aramızdakı dostluq, onun əlamətləri son illərdə xüsusi olaraq öz təzahürünü tapıb. Əslində, ölkələrimiz arasındakı səfərlərə gəldikdə, bu səfərlər çox yüksək səviyyədə təşkil olunmuşdur. İtaliya Respublikası Prezidentinin Sizin ölkənizə rəsmi səfəri münasibətlərimizin inkişafında çox mühüm bir addıma çevrildi. Sizin də Romaya etdiyiniz dövlət səfəri də bizim tərəfimizdən strateji əhəmiyyət kəsb edən bir hadisə kimi qəbul olunur. Biz də Sizə dost olaraq bilirik ki, səfər çərçivəsində bir çox razılaşmalar və xüsusən də, strateji tərəfdaşlıq haqqında mühüm sənəd imzalanıb. Əslində, bunlar elə sazişlərdir ki, onlarda çox konkret öhdəliklər və olduqca vacib mahiyyət əks olunubdur.

Azərbaycan İtaliya üçün enerji daşıyıcılarının ilk ixracatçısıdır. Belə bir keşməkeşli vaxtlarda enerji təhlükəsizliyini etimad göstərib o ölkəyə həvalə edə bilirik ki, o ölkə ilə həqiqətən dostluq münasibətləri olsun. Biz bu dostluğu daha da gücləndirmək istəyirik və münasibətlərimizi daha da şaxələndirmək fikrindəyik.

X X X

İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın münaqişədə həyatını itirən mülki şəxslərinə görə başsağlığı verdi, Gəncə və Ağdama səfərlərinə toxundu. O qeyd etdi ki, 30 illik işğal dövründə Ağdamda törədilmiş viranəliyin şahidi olublar. “Hətta inanmaq belə çətin idi ki, burada nə zamansa insanlar yaşayıb”, - deyə vurğuladı.

Ettore Rosato Prezident İlham Əliyevə İtaliya Deputatlar Palatası və İtaliya Senatı sədrlərinin salamlarını çatdırdı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Ə.N.Nağıyevə general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb Sərəncamla Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağı oğlu Nağıyevə general-polkovnik ali hərbi rütbəsi verilir. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Prezident İlham Əliyev O.S.Sultanova general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi Orxan Sedyar oğlu Sultanova general-polkovnik ali hərbi rütbəsi verilir. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir sıra hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

## Prezidentə yazırlar:

# Bu şanlı Qələbə Sizin iradəniz, qətiyyətiniz, müdrik və uzaqgörən siyasətiniz sayəsində əldə edildi

***Rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də digər ölkələrin azərbaycansevər vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.***



Almaniyanın Verl şəhərindən Əli Göktürk yazır: "Möhtərəm Prezident, şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı, Sizin rəhbərliyinizlə işğal altındakı ərazilərin azad edilməsində qazanılan zəfərinizə "Mübarək olsun!" deyir, Sizə hörmət və minnətdarlığımı bildirirəm. İnanıram ki, işğaldan azad edilmiş bütün ərazilərdə ən qısa zamanda quruculuq işləri başlayacaq və bu böyük zəferiniz türk dünyasının birləşməsinə, bir olmasına imkan yaradacaq. Sizin timsalınızda şanlı Azərbaycan Ordusunun bütün igid əsgərlərinə minnətdaram və ehtiramla sonsuz salamlarımı çatdırıram. Tanrı türk ümmətini qorusun!".



Rusiyanın Moskva şəhərindən Ramil Əliyevin məktubunda deyilir: "Möhtərəm Prezident İlham Əliyev, 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə Zəfər Günü kimi düşdü. Rusiya Federasiyası Moskva Vilayətinin İstra rayonunda azərbaycanlılar bu şanlı Qələbəni və Azərbaycanın tarixi torpaqlarının azad edilməsini bu günə kimi qeyd edirlər. Bu şanlı Qələbə ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq Sizin müdrik, uzaqgörən siyasətiniz, böyük əməyiniz, iradəniz və qətiyyətiniz sayəsində əldə edildi. Sizin komandanlığınız altında Azərbaycanın Silahlı Qüvvələri 44 gün ərzində torpaqlarımızın azad edilməsinə nail oldu. "Moskva Vilayətinin İstra şəhər dairəsinin Azərbaycan İcması" yerli ictimai təşkilatı parlaq Qələbəyə, eləcə də Azərbaycanın dövlət başçısı kimi apardığınız uğurlu xarici və daxili siyasətə görə Sizə səmimi qəlbdən minnətdarlığını bildirir".

Goranboy rayonundan Nəzrin Kərimli: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, mənim 19 yaşım var, Goranboy rayonunda, müharibə veteranının ailə üzvüyəm. Müharibənin hər dəqiqəsini həyəcanla yaşayan biri kimi Sizə minnətdarlıq etməyi özümə borc bilirəm. Arxa cəbhədən ön cəbhəyə əlimizdən gələn köməyi edib, onları ruhlandırmağa, ilhamlandırmağa çalışdıq. Arxa cəbhədə olan insanların ilham mənbəyi isə Siz idiniz, cənab Prezident! Müsahibələriniz zamanı verdiyiniz səlis cavablarınız bizə güc verdi. Yüksək səslə bütün dünyaya haqq yolunda olduğumuzu bəyan etməyiniz, rəhbərliyinizlə şanlı ordumuzun zəfər çalması bizi bir yumruq olan Azərbaycana çevirdi. Biz 44 günlük müharibədən sonra başqa bir Azərbaycan olduq! Sizin yüksək hərbi şücaətiniz və diplomatik qalibiyyətiniz nəticəsində bizim müqəddəs Laçınımız işğaldan azad olundu. Bundan əvvəl Ağdam və Kəlbəcər rayonları da bir güllə belə atılmadan geri qaytarıldı. Uğrunda minlərlə şəhid verdiyimiz torpaqları şəhid verməden azad etdiyiniz üçün Sizə minnətdaram. Biz güclü bir liderlə, cəsur Ali Baş Komandanla Azərbaycanı bütün dünyaya yenidən tanıtdıq. Siz Azərbaycanın qara bəxtli Qarabağına günəş kimi doğdunuz! Siz Qarabağımızın fatehi, igid sərkərdəsisiniz! Sizin sayənizdə bu gün mən qalib, düşmən tapdağında torpağı olmayan, başıdik, alnı açıq Azərbaycan vətəndaşıyam. Azərbaycan xalqı bir daha əmin oldu ki, gələcəyə İlhamla irəliləyəcək. Ulu liderimiz Heydər Əliyevin dediyi kimi mən fəxr edirəm ki, azərbaycanlıyam".

Füzuli rayonunun sakini Telman Hüseynov: "Azərbaycan tarixinə adını qızıl hərflərlə yazdıran Müzəffər Ali Baş Komandanım, 2020-ci il sentyabrın 27-dən torpaqlarımızın azadlığı uğrunda başlayan döyüşlərdə qalib gələcəyimizə inanırdım. Çünki bizim güclü Ordumuz və Müzəffər Ali Baş Komandanımız var. Füzuli torpağında Azərbaycan bayrağı dalğalananda ömrümün 87-ci ilində ürəyimdə qalan arzularım yenidən oyandı. Qısa bir müddətdə işğal olunmuş torpaqlarda və nəhayət Qarabağın tacı olan Şuşamızda bayrağımızın dalğalanması ulu öndər Heydər Əliyevin layiqli davamçısı olduğunuzu bir daha sübut etdi. Qarabağsız Azərbaycan tam deyildi, Siz Qarabağı yenidən bizə qaytardınız. Tarixi ədaləti bərpa etdiniz və sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Hələ 1982-ci ildə ümummilli lider Heydər Əliyev Füzuli rayonuna səfər edərkən onu qarşılayanlar arasında mən də olmuşdum. İnanıram ki, tezliklə işğaldan azad olmuş torpaqlar çiçəklənəcək və mən Sizi doğma Füzulimdə qarşılayacağam. Allah Sizi qorusun mənim və xalqımın əbədi Prezidenti!".

Ağdam sakini Yelmar Kərimov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, mən 1972-ci il sentyabrın 5-dən Azərbaycanın qurucusu, yaradıcısı, müstəqilliyinin banisi ulu öndər Heydər Əliyevin dostu, Yeni Azərbaycan Partiyasının fəal üzvü olaraq Sizə uzun ömür, cansağlığı arzulayıram. Siz Ulu Öndərin vəsiyyətini yerinə yetirərək Qarabağımızı erməni faşistlərin tapdağından azad etdiniz, bizə böyük Qələbə sevinci yaşatdınız. Siz Azərbaycanı, Azərbaycan xalqını qoruyursunuz. Sizin kimi Ali Baş Komandanı olan ölkə üçün heç bir qorxu, təhlükə yoxdur. Allah da Sizi və ailə üzvlərinizi qorusun!".

Bakı sakini Sənan İsrəfilov: "Əziz Prezidentim, Müzəffər Ali Baş Komandanım, 30 ilə yaxındır ki, işğal altında olan torpaqları müdrik siyasətinizlə, qəhrəman Azərbaycan əsgərinin hünəri ilə azad etdiyiniz üçün Sizə öz adımdan və bütün yaşıdlarım adından sonsuz minnətdarlığımı bildirirəm.

Ardı Səh. 4

## Prezidentə yazırlar:

# Bu şanlı Qələbə Sizin iradəniz, qətiyyətiniz, müdrik və uzaqgörən siyasətiniz sayəsində əldə edildi

Əvvəli Səh. 3

Bu müharibədə öz canını qurban vermiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyərək, Sizə Azərbaycan naminə bütün işlərinizdə böyük uğurlar arzu edirəm. Xalqımızın tarixində və millətimizin ürəyində əbədi yaşayacaqsınız!".

Laçın sakini İlqar Nadirov: "Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, 28 il öncə məcburi şəkildə köçürüldüyümüz Laçına qayıdışımızı təmin etdiyiniz üçün Sizə şəxsim və ailəm adından dərin təşəkkürümü bildirirəm. Rəşadətli Ordumuz Sizin rəhbərliyinizlə 2020-ci ilin bütün ağırlıqlarını bizə unutdurdu. Artıq Bakıda Laçın küləyi əsir. İllər öncə bu cümləni dilə gətirəndə, ürəyimiz əsirdi. Sanki yuxu kimi gəlir bütün yaşananlar. Allah şəhidlərimizə rəhmət eləsin. Siz də qeyd etdiyiniz kimi, onlar, aslan kimi vuruşdular. Bütün gücü isə Sizdən aldı hərbçilərim, cənab Prezident! Azərbaycan vətəndaşı olmaqdan qürur duyuram! Laçın Azərbaycandır! Qarabağ bizimdir!".



Kəlbəcər sakini Əlizamin Qarayev: "Möhtərəm cənab Prezident, müzəffər sərkərdəlik məharətinizlə şanlı Ordumuzun Qarabağ cəbhəsində qazandığı möhtəşəm hərbi zəfər münasibətilə Sizi ürəkdən təbrik edirik. Müzəffər Ali Baş Komandan, Vətən müharibəsinin zəfərləri silsiləsində Kəlbəcər rayonunun da olması bütün Azərbaycan xalqında hədsiz sevinc yaratdı. Biz kəlbəcərlilərin hisslərini sözlə ifadə etmək mümkün deyil. 27 illik həsrətdən sonra Kəlbəcərin döyüşsüz işğaldan azad edilməsi xalqımıza ən xoşbəxt, qürurlu günləri yaşatdı. Cənab Prezident, doğma yurdumuzu bizə qaytardığınıza görə Kəlbəcər rayonunun sakinləri adından Sizə sonsuz minnətdarlığımızı bildiririk. Kəlbəcər ziyalıları hər zaman bir olaraq Sizin ətrafınızda birləşiblər".



Yevlax rayonunun sakini Lyudmila Bağırovanın məktubunda deyilir: "Müzəffər Ali Baş Komandanımız, əzizimiz, qalib Sərkərdəmiz, çox hörmətli, əziz Mehriban xanım, gözləriniz aydın olsun! Qartallar oylağı Laçınımız da mənfur düşmən işğalından azad oldu. Dövlətimiz Sizin güclü siyasətiniz və Ordumuzun qüdrəti sayəsində öz ərazi bütövlüyünü təmin etdi. Çox şükürlər olsun. Vətənimizin azad olmuş hər guşəsinə şükür. Üçrəngli şanlı bayrağımızın Qarabağımızda dalğalandığını hər dəfə gördükdə gözlərim dolur. Mən bir şuşalı kimi 1992-ci ildə Şuşanın işğalı günü iki qardaşını şəhid vermiş bacı kimi Sizə qəlbən minnətdaram. Şuşam azad olundu, qardaşlarımın və onlar kimi çoxsaylı şəhidlərimizin qanı yerdə qalmadı. İndi o şəhidlərin ruhu şaddır. Çox sağ olun, əziz Prezidentimiz. Zəfəriniz mübarək! Yaşasın qalib Azərbaycan Ordusu! Yaşasın İlham Əliyev! Yaşasın Azərbaycan!".

Naftalan sakini Aişə Əsədzadə: "Əziz Prezidentimiz, adım Aişədir, 7 yaşım var. Babam Hüseynov Rafiq polis mayoru kimi 1988-ci ildə Xankəndidə müharibədə iştirak edib. Nənəm hər zaman babamın Birinci Qarabağ müharibəsində çəkdirdiyi şəkilləri görəndə ağlayırdı. Mən indi başa düşürəm ki, nənəm niyə ağlayırdı. Çünki babam müharibə iştirakçısı və veteranı olub. Əziz Prezidentimiz, biz Sizi çox sevirik. Siz televiziyada çıxış edərkən nənəm hər dəfə deyir: Əsl rəhbərdir bizim Prezidentimiz. Hörmətli Prezidentimiz, mən inanıram ki, biz uşaqların gələcək xoşbəxtliyini ancaq Siz təmin edə bilərsiniz. Allah Sizi qorusun!".

Kəlbəcər sakini Məzahir Əhmədov: "Çox hörmətli cənab Prezident, bu gün bütün kəlbəcərlilər kimi mənim və ailə üzvlərimin sevincinin həddi-hüdudu yoxdur. Siz 27 illik Kəlbəcər həsrətinə son qoydunuz. Yenilməz Ali Baş Komandan olaraq işğalçını məğlub edərək, doğma yurdumuzu bizə yenidən bəxş etdiniz. Mən ailəm adından və şəxsən öz adımdan Sizə dərin hörmət və ehtiramımı bildirirəm. Allah Sizi, rəşadətli müzəffər Ordumuzu qorusun! Cənab Prezident, biz Sizinlə fəxr edirik. Sizin qəhrəmanlığınızla xalqımızın yeni şanlı tarixi yazıldı. Zəfərimiz mübarək olsun!".

Neftçaladan Pərvin Səfərov: "Müzəffər Ali Baş Komandan, möhtərəm cənab Prezident, Siz bizim Qələbəmizin tarixi şəxsiyyətisiniz. Qələbə tarixini bizə yaşatdığınız üçün Sizinlə qürur duyuruq. Hər bir Azərbaycan vətəndaşı kimi qalib millətin nümayəndəsi olduğum üçün Sizə minnətdaram. "Qarabağ Azərbaycandır!" ifadəsi mənim həyatımın əsas yaradıcı hissəsinə çevrildi. Musiqiçi olaraq "Qarabağ Azərbaycandır!" yaradıcılığı bütün ifalarımın ideyasıdır. Biz də öz yaradıcılığımızla müqəddəs tariximizi əbədi yaşadacağıq. Sizin gücünüz bizə güc verir. Mənim hər zaman arzum olub ki, Azərbaycanın əbədi və əzəli torpaqlarında incəsənətin bütün incəliklərini yaşayım. Sizin sayənizdə arzularım reallığa çevrildi. Tezliklə bizim səsimiz Qarabağdan, mədəniyyətimizin beşiyi olan Şuşadan və digər müqəddəs torpaqlardan gələcək. İncəsənətin ürəyi hesab olunan müqəddəs torpaqlarda firavan Azərbaycan dövləti əbədi yaşayacaq. Sizə sonsuz inamı olan bir yaradıcı insan kimi hər zaman Sizin xidmətinizdəyəm. Yaşasın Azərbaycan Ordusu, yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

Gəncə sakini Nicat Sadıqov: "Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi bu Qələbə münasibətilə ailəm və kəlbəcərlilər adından təbrik edirəm. Sizin müdrik siyasətiniz, Ordumuzun fədakarlığı sayəsində Azərbaycanın necə qeyrətli xalq olduğunu bütün dünya bildi. Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı, Siz xalqımıza sonsuz sevinc anları bəxş etdiniz, millətimizi qalib xalq zirvəsinə yüksəltdiniz. Biz fəxr edirik ki, Sizin kimi Müzəffər Ali Baş Komandanımız var və şükür edirik ki, tarixə qızıl hərflərlə yazılacaq Qələbəni görmək bizə də nəsib oldu. Siz Azərbaycanın Milli Qəhrəmanısınız. Yaşasın Azərbaycan, yaşasın Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

Laçın sakini Anar Həsənov: "Çox hörmətli cənab Prezident, Laçın rayonundan artıq keçmiş məcburi köçkün olaraq Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin dövlət başçısı, Ali Baş Komandan olaraq rəhbərliyiniz altında, qəhrəman Ordumuzun Laçın da daxil olmaqla işğal altında olan torpaqlarımızı azad etməsi bütün Azərbaycan xalqı kimi mənə və ailəmə də çox böyük sevinc yaşatdı. 28 il Vətəndən ayrı düşmək dərdi, el-oba həsrəti məhz Sizin uğurlu siyasətiniz, qəti addımlarınız nəticəsində sona çatdı. Azərbaycanın işğal edilmiş torpaqlarının, Laçının qaytarılması kimi böyük hərbi-siyasi qələbə rəhbərliyinizlə xalqımızın tarixinə çox böyük, əlamətdar nailiyyət kimi yazıldı. Bizə Vətənə qayıtmaq kimi uzun illərdir ki, ürəyimizdə yaşatdığımız arzuya çatmaq imkanı yaratdığınıza görə bir daha Sizə dərin minnətdarlığımı bildirirəm. Sizə daim cansağlığı, dövlət xadimi kimi xalqımızın rifahı, mənafeləri uğrunda fəaliyyətinizdə uğurlar, qələbələr arzulayıram".

Xızı sakini İman Ağayev: "Möhtərəm cənab Prezident, Sizə deyiləsi o qədər xoş sözlər var ki, qədəri kainata belə sığmaz. Minnətdarlıq hisslərinin ən alisinə layiqsiniz. Bizi öz əzəli yurd yerlərimizə qovuşdurdunuz. Qələbə sevincini, qürurunu öz yurdu ilə, Sizinlə döyünən bütün ürəklərdə alovlandırdınız. Bizə zəfər yaşatdınız. Eşq olsun Sizə! Siz mərd oğlu mərdsiniz! Bizim Heydər babamızın oğlu, nə yaxşı ana yurdumuz Azərbaycanımızın, bizim Prezidentimizsiniz! Yaşa, Müzəffər Ali Baş Komandan!".

## "TRT Haber": Azərbaycan qazandığı zəfərlə bölgədə yeni əməkdaşlıq mühiti yaradıb

Türkiyənin "TRT Haber" telekanalı Azərbaycan-Türkiyə münasibətlərinə dair növbəti veriliş yayımlayıb. Verilişdə qeyd edilib ki, Azərbaycan Ordusunun cəbhədə qazandığı zəfərlə bölgədə yeni bir əməkdaşlıq mühiti yaranıb.




AZƏRTAC xəbər verir ki, verilişdə professorlar Oqtay Tanrısevər, Çağrı Erhan və Saynur Dərman teleaparıcı Bətul Soysal Bozdağanın qonağı olublar.




Verilişdə Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində qazandığı Qələbənin bölgədə yaratdığı yeni geosiyasi situasiya əsasında formalaşan hazırkı münasibətlər təhlil edilib. Azərbaycan-Türkiyə münasibətlərinin uca zirvələri fəth etdiyini diqqətə çatdıran ekspertlər əsaslandırıblar ki, iki qardaş ölkə arasındakı mövcud əlaqələr və görülən işlər, eləcə də perspektivdə olan layihələr və planlar bölgəyə sülh, sabitlik və inkişaf vəd edir. Hazırda Azərbaycan və Türkiyəyə qarşı düşmənçilik sərgiləyən ölkələr birliyimizdən narahat olduqları üçün proseslərə ikili standartlardan yanaşırlar. Lakin hər iki ölkə rəhbərliyi bütün bu təzyiqlərə qarşı polad siyasi iradə nümayiş etdirir. Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıya nəzərdə tutulan səfəri çərçivəsində əməkdaşlıq və müttəfiqlik istiqamətində atılacaq növbəti addımlar Azərbaycan-Türkiyə biliyini bir daha bütün dünyaya göstərəcək.




## Ceyhun Bayramov ilə İsrail Xarici işlər naziri arasında telefon danışığı olub




7 dekabr 2020-ci il tarixində Xarici işlər naziri Ceyhun Bayramov ilə İsrail Xarici işlər naziri Qabi Aşkenazi arasında telefon danışığı baş tutub. XİN-dən SİA-ya verilən məlumata görə, nazirlər bölgədəki vəziyyət, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan irəli gələn məsələlər barədə fikir mübadiləsi aparıblar və bölgədə sülhün, təhlükəsizliyin və rifahın təmin edilməsi üçün birgə bəyanatın icra edilməsinin vacibliyini vurğulayıblar. Tərəflər, həmçinin müxtəlif sahələrdə həyata keçirilən layihələr də daxil olmaqla ikitərəfli əməkdaşlığı və qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

## Sergey Markov: Ermənistan ərazisindən dəhliz çox böyük hərbi-siyasi və iqtisadi əhəmiyyət kəsb edə bilər



Ermənistan ərazisindən Naxçıvan dəhlizi iqtisadiyyat üçün son dərəcə əhəmiyyətlidir. Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov bu fikrini "İnformasiya müharibələri. "Qarabağ uğrunda mübarizə" rusiyalıların kütləvi şüurunda" mövzusunda keçirilən dəyirmi masada AZƏRTAC-ın sualını cavablandırarkən bildirib.

Xatırladaq ki, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı Bəyanatın 9-cu bəndində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edildiyi bildirilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.

Ekspertin qeyd etdiyi kimi, Ermənistan ərazisindən dəhliz Azərbaycanı və Türkiyəni quru yolla əlaqələndirir. Bu dəhliz çox böyük hərbi-siyasi və iqtisadi əhəmiyyət kəsb edə bilər. O deyib: "Azərbaycanın əldə etdiyi bu hissə Laçın dəhlizinə balans qismində ayrılıb. Əgər Ermənistan bu dəhlizin tikintisinə razılıq verməzsə, o halda Azərbaycan Dağlıq Qarabağ ilə Ermənistan ərazisini bağlayan Laçın dəhlizini bloklayacaq".

S.Markov Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya kanallarına paralel müsahibə zamanı "Nikol Paşinyanı tam məğlub etməsi"ni vurğulayan ekspertlərlə eyni fikirdə olduğunu qeyd edib. Politoloq deyib: "Multikulturalizm Azərbaycanda əsas dövlət ideologiyasıdır. Erməniləri Azərbaycan cəmiyyətinə real şəkildə daxil etmək lazımdır. Bu nöqteyi-nəzərdən Prezident İlham Əliyevə münaqişə xətlərinin "donunu açmaq" gərəkdir. Bundan ötrü Ermənistanın da iştirak edə biləcəyi Naxçıvan nəqliyyat dəhlizini qurmaq və bunun vasitəsilə barışıq yolu ilə getmək lazımdır. Daha sonra bir hissəsi hərbi yolla qaytarılmış Dağlıq Qarabağın qalan hissəsini dinc yolla Azərbaycana qaytarmaq lazımdır".

Markovun sözlərinə görə, əsas məqsəd məhz budur. "Mənə elə gəlir ki, nəqliyyat kommunikasiyalarının beynəlmiləlləşdirilməsi, qloballaşdırılması müasir tendensiyalara cavab verən düzgün addımdır. Məntiq belədir ki, Dağlıq Qarabağı "fəth etməyə", Dağlıq Qarabağda hər hansı etnik təmizləmə aparmağa ehtiyac yoxdur. Kommunikasiyaları elə açmaq lazımdır ki, Dağlıq Qarabağdan olan iş adamları biznes qurmaq üçün Yerevana deyil, Bakıya getsinlər. Naxçıvana dəhliz layihəsinin reallaşdırılması uzun illər tələb edir. Buraya yolların tikilməsi, bu yolların ətrafında infrastrukturun qurulması daxildir. Buradan xeyli insan gəlir əldə edə bilər, bu, uzun illəri əhatə edəcək və perspektivli layihədir", - deyə Markov sonda bildirib.

## Misirli professor: Prezident İlham Əliyev İslam tarixində müzəffər sərkərdə kimi qalacaq

Azərbaycan Prezidenti İlham Əliyev İslam tarixində müzəffər sərkərdə kimi qalacaq. Mən onu İslam aləminin xilaskarı olmuş Səlahəddin Əyyubi kimi tarixi şəxsiyyətlərlə müqayisə edərdim. Azərbaycan Prezidenti torpaqları işğaldan azad etməklə yanaşı, həm də İslam mədəni irsinin bir hissəsini tamamilə məhv olmaqdan xilas etdi və bütün dünyanın qarşısında onların tezliklə bərpa ediləcəyi bəyanatını səsləndirdi.

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Misir-Azərbaycan Dostluq Cəmiyyətinin baş katibi, Benha Universitetinin professoru Əbdülrəhman Saad söyləyib. O əlavə edib: "Mən və Dostluq Cəmiyyətinin digər üzvləri Azərbaycan xalqını və şəxsən Prezident İlham Əliyevi böyük Qələbə münasibətilə təbrik etmişik. Biz 30 ilə yaxın işğal altında qalmış Azərbaycan torpaqlarının azad edilməsinə sevinirik.



Azərbaycanın dostu kimi, hər tədbirdə, hər forumda ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların nəticə verməməsindən narahatlığımızı ifadə edirdik. Bu münaqişənin nizama salınmasına ən böyük maneə BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının dərhal və qeyd-şərtsiz olaraq azad edilməsi haqqında qətnaməsinə məhəl qoymayan Ermənistan rəhbərliyi idi. Lakin son illər hərbi təxribatları daha da artıran, üstəlik qızışdırıcı bəyanatlarla çıxış edən Ermənistanın baş naziri vəziyyəti müharibə həddinə gətirib çıxardı. Bilirəm ki, Azərbaycan Prezidenti problemin sülh yolu ilə həlli üçün bütün səyləri göstərib. Amma səbrin də bir həddi var. Qısa müddət ərzində torpaqlarını işğaldan azad edən Azərbaycan Ordusunun rəşadətinə heyran qaldım. Bu, tarixə qızıl hərflərlə yazılacaq bir Zəfərdir. Bir daha Azərbaycan xalqını və onun lideri İlham Əliyevi təbrik edirəm. Misirlilər dost və qardaş azərbaycanlıların Qələbə sevincini bölüşürlər.

Misirli professor vurğulayıb ki, Azərbaycan ərazisində olan İslam mədəni irs abidələrinin, məbədlərin ermənilər tərəfindən təhqir olunması videokadrları Misir ziyalılarını da məyus edib. "Misirlilər də azərbaycanlılar kimi tolerant xalqdır. Biz Misirdə İslam abidələri, məscidlərlə yanaşı, yəhudi sinaqoqları, xristian kilsələri, xüsusən qədim qibti xristianların məbədlərini qoruyur, onları bərpa edirik. Azərbaycan da öz məscidlərini, həmçinin sinaqoq və kilsələri dövlət səviyyəsində qoruyur. Lakin ermənilərin məscidləri təhqir etməsi heç bir insanlıq meyarına sığmır. Mən Səlahəddin Əyyubini niyə misal çəkdim? Çünki bu tarixi şəxsiyyət də məscidləri dağıdan səlib yürüşü iştirakçılarına qarşı döyüşüb və onlara qalib gəlib. O da humanistlik nümayiş etdirərək xristian abidələrinə, kilsələrə toxunmayıb, onları mühafizə edib", - deyə Əbdülrəhman Saad vurğulayıb.

# “Dini məbədin donuz tövləsi kimi istifadə edilməsi dəhşətli, misli görünməmiş vəhşilikdir”

## *İtaliya parlamentarilərinin Gəncə və Ağdam təəssüratları*

***Gəncədə erməni terroru nəticəsində böyük dağıntıların yarandığı əraziyə və Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edən İtaliya parlamentinin nümayəndə heyətinin üzvləri öz təəssüratlarını sosial şəbəkələrdəki hesablarında paylaşıblar. SİA xəbər verir ki, nümayəndə heyətinin rəhbəri, Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın ikinci böyük şəhəri Gəncədə mülki əhalinin bombalanmasının dəhşətli nəticələri ilə tanış olduqlarını və bu dramatik mənzərəni heç zaman unutmayacağını yazıb.***













Qarabağda şəhər və kəndlərin talan olunduğunu və tamamilə yerlə-yeksan edildiyini bildirən E.Rosato Ağdam məscidinin minarəsindən videogörüntülər də paylaşıb. Qarabağa səfər edən ilk Avropa parlament nümayəndə heyətinin rəhbəri videoda Ağdam şəhərindəki dağıntıları nümayiş etdirib və tezliklə burada həyatın bərpa olunacağına ümid ifadə edib.

İtaliya Senatının Xarici əlaqələr daimi komissiyasının üzvü, hakim “5 Ulduz Hərəkatı” partiyasından olan senator Canluka Ferrara “Qafqazın Xirosiması” adlanan Ağdama gedən yolun minalanmış ərazilərdən keçdiyini yazıb. 1993-cü ildə erməni qoşunları tərəfindən işğal edilən və dağıdılaraq “ruhlar şəhərinə” çevrilən Ağdamda yeganə salamat binanın şəhər məscidi olduğunu qeyd edən C.Ferrara işğal illərində bu dini məbədin donuz tövləsi kimi istifadə edildiyini diqqətə çatdırıb. Bu dəhşəti, misli görünməmiş vəhşiliyi yaxından görə bilən ilk beynəlxalq missiyanın üzvü kimi o, səhraya dönmüş bu ərazilərə insanların tezliklə geri qayıdacaqlarına inam ifadə edib.

İtaliya parlamentində “İtaliya qardaşları” partiyasından olan senator, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü Adolfo Urso öz qeydlərində Gəncədə onlarla qadın, uşaq və qocanın ölümünə səbəb olan raket hücumundan bəhs edib. O, məhv olan ailələr, qətlə yetirilmiş uşaqların oyuncaqları, evlərin dağıdılmış divarlarını sağalması çətin olan yaranın təzahürləri kimi təqdim edib. Həmin dramatik hadisələrin bir daha təkrarlanmaması üçün bu yaraların və acıların sağaldılmalı olduğu qeyd edilib.

A.Urso Ağdamda məscidin donuz tövləsi kimi istifadəsini isə təhqir nümunəsi kimi dəyərləndirib və bu gördüklərinin təəssüf ki, ağrılı həqiqət olduğunu yazıb.

İtalyan parlamentari Alessandro Alfieri Gəncə və Ağdamda gördüyü vəziyyəti ətraflı təsvir edib. Bir zamanlar Azərbaycanın çiçəklənən şəhərlərindən biri olan Ağdama gedən yolda bütün üzüm bağlarının məhv edildiyi, əkin sahələrinin səhraya çevrildiyi, ətraf ərazilərin minalandığı və yalnız xüsusi hərbi hissələrin həmin ərazidə təmizləmə işləri apardığı bildirilir. Qeyd edilir ki, müharibə başa çatsa da, mülki əhali bu ərazilərə geri dönə bilmək üçün səbir etməlidir. O, yaxın günlərdə qohumlarının məzarlarını ziyarət etmək istəyərkən minaya düşən bir ailənin faciəsini də diqqətə çatdırır.

Parlamentari Ağdam haqqında təəssüratlarını müsbət notlarla bitirir. O qeyd edir ki, dəfələrlə Azərbaycan çempionu olmuş və Çempionlar Liqasında mübarizə aparmış Ağdamın “Qarabağ” futbol klubu bir neçə gün öncə öz ev stadionuna baş çəkdi və həmin mənzərə insanlarda təsirli hisslər doğurdu. Bu, bir daha göstərdi ki, dağıdılmış şəhər yenidən həyata geri dönə bilər.

Parlamentarilərin “Facebook”, “Twitter” və “Instagram” sosial şəbəkələrində birbaşa hadisə yerlərindən paylaşdıqları foto və videolar Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələri barədə dolğun təsəvvürlər yaradıb.

## Mövlud Çavuşoğlu: “Regionda baş verən normallaşma prosesi Ermənistanın da xeyrinə olacaq”



Qafqazda sabitlik və iqtisadi layihələrdən faydalanmaq əvəzinə Azərbaycan torpaqlarının işğalını davam etdirməyə üstünlük verən Ermənistanın və problemin siyasi həllində maraqlı olmayan dairələrin məqsədyönlü siyasəti səbəbindən Dağlıq Qarabağ münaqişəsi 30 ilə yaxın davam edib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Antalyanın Akdeniz Universitetində Şərqi Aralıq dənizi ilə bağlı keçirilən beynəlxalq konfransda bildirib.

Nazir deyib: “Bizim Ermənistan ərazisi ilə bağlı heç bir iddiamız yoxdur. Hazırda regionda baş verən normallaşma prosesi Ermənistan və erməni xalqının da xeyrinə olacaq. Belə ki, biz ədalətli paylaşımın tərəfdarıyıq. İstər mənəvi, istərsə də hüquqi baxımdan güclüyük və bu gücümüzün önümüzdəki dövrdə hər kəsin xeyrinə istifadə edilməsinə kömək göstərəcəyik”.

## Azərbaycanda komendant saatı bu tarixdə ləğv ediləcək




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 12-də saat 00.00-dan “Hərbi vəziyyətin ləğv olunması haqqında” Fərmanının təsdiq edilməsi məsələsi Milli Məclisdə müzakirə olunacaq. Bu barədə SİA-ya MM-dən məlumat verilib. Məsələ Milli Məclisin dekabrın 11-də keçiriləcək növbəti iclasında müzakirəyə çıxarılacaq.

# BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi dünyada Azərbaycana və onun liderinə olan yüksək etimadın göstəricisidir

*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*



***-Sevinc xanım, BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilən Xüsusi Sessiyanın əhəmiyyəti haqqında nə deyə bilərsiniz?***

- Dekabrın 3-də BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilən xüsusi sessiyası qlobal miqyasda çox mühüm hadisədir. Bu sessiyanın keçirilməsinin təşəbbüskarı özündə 120 dövləti birləşdirən Qoşulmama Hərəkatının sədri, Azərbaycan Prezidenti İlham Əliyevdir. Təşkilata sədrliyi həyata keçirən Azərbaycanın Prezidenti cari ilin may ayında qurumun Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşündə belə bir təşəbbüslə çıxış etmişdi. Cənab Prezidentin bu təşəbbüsü Qoşulmama Hərəkatının bütün 120 üzvü tərəfindən dəstəkləndi. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsə öz dəstəyini ifadə etmişdi.

Azərbaycanın təşəbbüsünə BMT səviyyəsində yüksək dəstək verilməsi respublikamızın beynəlxalq nüfuzunun getdikcə artmasını bir daha təsdiqləyir. Belə genişmiqyaslı tədbirin keçirilməsi Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir. Xüsusi sessiyada çıxış edən Prezident İlham Əliyev bildirib ki, bu gün dünya üçün ən böyük təhlükə olan COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var. İndiki həssas məqamda BMT Baş Assambleyasının xüsusi sessiyasından gözləntilərin böyük olduğuna diqqət çəkən dövlətimizin başçısı vurğulayıb ki, xüsusi sessiya pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini verəcək və bizi ümumi hədəflər ətrafında daha da sıx birləşdirəcəkdir. Xüsusi sessiyada çıxış edən dünya ölkələrinin liderləri və digər nümayəndələr COVID-19 pandemiyası ilə mübarizənin önəmini vurğuladılar. Aparılan müzakirələr bir daha Azərbaycan Prezidentinin təşəbbüsünün nə qədər böyük əhəmiyyət kəsb etdiyini təsdiqlədi.

***-Sizcə, Azərbaycanın bu təşəbbüsünün dünya ölkələri tərəfindən dəstəklənməsində əsas amillər nədən ibarətdir?***

-Ümumiyyətlə, müstəqil Azərbaycanın özünün çoxvektorlu xarici siyasətində daim xoş məram nümayiş etdirməsinin, milli maraqlarını tərəfdaş dövlətlərin maraqları ilə məharətlə uzlaşdırmasının məntiqi nəticəsidir ki, ölkəmizin beynəlxalq miqyasda rolu və nüfuzu getdikcə artır. Bu gün respublikamız dünyada regional və qlobal əməkdaşlığa sanballı töhfələr verən, təhlükəsizliyə təhdid hallarının aradan qaldırılmasında fəal iştirak edən, eyni zamanda, heç kimin köməyinə ehtiyacı olmayan, öz hesabına yaşayan ləyaqətli dövlət kimi tanınır. Hazırda Azərbaycan eyni vaxtda iki beynəlxalq təşkilata - Türk Şurasına və Qoşulmama Hərəkatına sədrlik fəaliyyətini uğurla həyata keçirir. O cümlədən ölkəmiz bəhs olunan təşkilatlarda sədrlik fəaliyyətini dünyadakı aktual çağırışlara adekvat quraraq qlobal təhlükələrə qarşı qlobal həmrəyliyin möhkəmləndirilməsinə hesablanan yeni təşəbbüslər irəli sürür. Respublikamız Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiya şəraitində yüksəksəviyyəli görüşlərini təşkil etməklə liderlik keyfiyyəti ortaya qoyub və qlobal səyləri birləşdirib. Bütövlükdə, Azərbaycanın pandemiyanın başladığı ilk vaxtlardan qlobal həmrəyliyin möhkəmlənməsinə verdiyi töhfələrin miqyası kifayət qədər genişdir.

Bu baxımdan, respublikamızın Qoşulmama Hərəkatının sədri kimi, BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürməsi də böyük aktuallıq daşıyır. Məlum olduğu kimi, hazırda yeni növ koronavirus pandemiyası bütün dünyanı ağuşuna alıb və ölkələr üçün ciddi təhdidlər yaratmaqdadır. Pandemiya səbəbindən dünya iqtisadiyyatına ciddi ziyan dəyib. Belə bir şəraitdə dünya ölkələrinin həmrəylik göstərmələri qaçılmaz zərurətə çevrilib. Yalnız birgə səylərlə qlobal təhlükənin qarşısını almaq mümkündür. Azərbaycanın irəli sürdüyü təşəbbüs də məhz bu məqsədə xidmət edir.

***- Yalnız Ermənistan BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr olunmuş xüsusi sessiyanın keçirilməsinə qarşı çıxmışdı...***

-Bəli, xoş niyyətə əsaslanan bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət Ermənistan olmuşdu. Bütün dünya COVID-19-a qarşı mübarizədə beynəlxalq həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü bir daha rüsvay edib. Bütün dünya bir daha Ermənistanın əsl irticaçı mahiyyətinin şahidi olub. Azərbaycanın ərazisinin 20 faizini üç onillik ərzində işğal altında saxlayan Ermənistan sentyabrın 27-də cəbhə xəttində növbəti genişmiqyaslı təxribat törətməklə pandemiya şəraitində qlobal həmrəyliyə növbəti zərbəsini vurdu. Azərbaycan Prezidenti İlham Əliyev bu barədə xüsusi sessiyada öz fikirlərini bildirib.

44 gün davam edən müharibə zamanı Ermənistan silahlı qüvvələri döyüş bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən və digər şəhərləri intensiv raket zərbələrinə məruz qoyub. Nəticədə, 11 nəfəri uşaq olmaqla, 94 mülki şəxs qətlə yetirilib, 400-dən artıq insan yaralanıb. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan Ordusu bunun layiqli cavabını verib. Silahlı Qüvvələrimiz əks-hücum əməliyyatlarını uğurla həyata keçirərək işğal olunmuş ərazilərin böyük bir hissəsini geri qaytarıb. Hərbi əməliyyatlar zamanı qazanılmış Qələbə işğalçını təslim olmağa məcbur etdi. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması nəticəsində respublikamızın işğal altında olan digər əraziləri döyüşsüz, qan tökülmədən geri qaytarılıb. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll edilib. Beynəlxalq hüquqa məhəl qoyulmadığı üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin güc yolu ilə icrası qaçılmaz idi. Nəticədə təcavüzkar dövlət sülhə məcbur edildi.

# "Qarabağın azadlığına ağlayanlar - radikallar"




Azərbaycan cəmi 44 gün davam edən Vətən müharibəsi ilə özünün ərazi bütövlüyünü bərpa etdi. İki ay öncəyə qədər ərazisi de-fakto olaraq təxminən 70 min kv.km olan Azərbaycanın ərazisi bu gün de-fakto olaraq 88 min kv.km-dir. Bu gün Azərbaycanın daha 700-ə yaxın şəhər, kənd və qəsəbəsində Azərbaycan bayrağı dalğalanır. Bu gün hər birimiz doğma torpaqlarımızın ətrini duyuruq. Nəhayət, bu gün Azərbaycan öz qürurunu, milli mənliyini, kimliyini özünə qaytardı. Baxmayaraq ki, 30 ilə yaxın bir dövr ərzində bu torpaqların geri qaytarılması uğrunda nəfəs çəkilmədən mübarizə aparılıb, ərazi bütövlüyümüzün bərpası uğrunda son həmlənin endirilməsi üçün titanik işlər görülüb, baxmayaraq ki, bir çoxları üçün tunelin sonunda işıq görünmürdü.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində Azərbaycanda təsəvvür edilə bilinməyəcək dərəcədə böyük, tarixi işlər görüldü. Bu günə qədər Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi tədbirlər, bugünki tarixi nəticənin əldə olunması üçün atdığı titanik addımılar bir əsrə bərabər görülmüş işlər qədərindədir. Bizim gördüklərimiz, ictimaiyyət üçün görünən tərəflər yalnız nəhəng aysberqin görünən kiçik bir parçasıdır. Bilmədiklərimiz və hələ də ictimailəşdirilməsi mümkün olmayan daha böyük işlər, riskli addımlar, diplomatik səylər və digər məsələlər yəqin ki, zamanla ictimailəşəcək. Bu məqamlara cənab Prezident İlham Əliyev müharibə dövrü müsahibələrində dəfələrlə toxunmuşdur.

Tarix, fakt, reallıq, günümüzün mənzərəsi isə budur ki, Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycanın qızıl hərflərlə ən şanlı tarixi yazıldı. Bu tarizimizin yazılmasında Prezident İlham Əliyevin qeyd etdiyi kimi, yumruq kimi milli birliyimizin mühüm rolu oldu. Bu birlikdə hamımız olduq. Amma bu BİRLİKDƏ yeri və rolu olmayanlar da oldu. Bu milli birlikdə özünü görə bilməyən "milli" şərəfsizlər Qarabağın azadlığının əleyhinə çıxdılar. Bunu açıq deмədilər, yəqin ki, deyə bilmədilər. Çünki bu onlar üçün birdəfəlik olaraq "son" demək olardı. Bunu onlardan himayədarları tələb edirdi. O himayədar ki, ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, Azərbaycana qarşı açıq müharibə elan etmişdir. O himayədar ki, onun adı hər kəsə bəlli, bədnam "Soros"dur.

Kimisinin "radikal müxalifət", kimisinin "beşinci kolon" adlandırdığı, əslində isə bütün dünyada parçalayıcı və dağıdıcı imici olan Soros Fondu və onun ölkəmizdəki uşaqları Vətən müharibəsinin elə ilk günlərindən milli mənafeyimizə qarşı çıxdılar. Azərbaycanın beynəlxalq miqyasda tanınmış hüquqlarının bərpası istiqamətində mübarizəsini ləkələməyə başladılar. Özlərinin "milli şura" adlandırdıqları milli şüursuzların başqanı Cəmil Həsənli, xaç atası Əli Kərimli, onun baş ideoloqu və tribunu Qəniməz Zahid, şəhid atasının erməni qatillərinə xidməti özünə şərəf sayan Sevinc Osmanqızı, vaxtilə AMİP-in cırılan şinelinin altından çıxan Əli Əliyev və bu kimi barmaqla sayılacaq ünsürlər Azərbaycana qarşı ikinci cəbhə açdılar. Bunlar kimdir? Onlar Azərbaycandan, Azərbaycan xalqından nə istəyirlər? Onlar bu xalqa nə veriblər ki, bu gün onu geri ala bilmirlər? Onlar Qarabağ probleminin həllini niyə həzm edə bilmirlər. İnsan nə qədər manqurtlaşmalıdır ki, Şuşanın, Ağdamın, Kəlbəcərin bugünki mənzərəsinə baxarkən dərisinin altına isti keçməsin. Necə ola bilər ki, bu "insan" adında olan varlıqlar islam adına nə varsa təhqir olunmuş torpaqlarımızda bu gün azan səsinin ucalmasını qəbul edə bilmirlər?

Soros və onun filiallarının fəaliyyəti dünyanın heç bir ölkəsinə xoşbəxtlik, firavanlıq, sabitlik və inkişaf bəxş etməyib. Bu fondun və onun yerlərdəki törəmələrinin "nailiyyəti" yalnız həmin ölkənin çox qısa zaman kəsiyində xaos və anarxiyanın girdabına yuvarlanması olub. Bu artıq tarixin qızıl qanununa çevrilib. Gerçəkliklər və nümunələr uzaqda deyil, ətrafımızdadır. Bu reallıqlar uzaq tarix deyil, günümüzün mənzərəsidir. Soros, Ukrayna üçün itirilmiş Donbas və Luqanskdır. Soros, Krımın Kiyevə surprizidir. Soros, insanların bir-birinin ətini yediyi bugünki Yerevandır. Soros, ölkəni içəridən didib-dağıdan, onu inqilablar ocağına çevirmiş Qırğızıstandır. Soros, Türkiyəni içəridən dağıtmağa məqsədlənmiş FETO-dur. Nəhayət, Soros bu gün Qarabağın azadlığına ağlayan, ərazi bütövlüyümüzün bərpasını qara bayraqla qarşılayan milli şuradır. Bu təşkilat və onun xoşməram fəaliyyətinə nümunə göstərilə biləcək heç bir ölkə yoxdur.

Prezident İlham Əliyev başda olmaqla, Azərbaycan xalqı iqtidarlı-müxalifətli bir yumruq olaraq erməni işğalçılarını bu torpaqdan silib atdı. Azərbaycan indi daha rahat nəfəs almağa başlayıb. Tarix diqtə edir. Yolumuzun üzərində hələ də sorosun tör-töküntüləri, çör-çöpləri var. Bu çör-çöplər, soros inkubatorları isə əli kərimlilər, əli əliyevlər, cəmillər, sevinclər, qənimətlərdir. Xalq, dövlət, millət naminə bu yaranın da Azərbaycanın bətnindən kəsilib atılması zamanı deilmi? Zamanıdır. Vətən müharibəsində Azərbaycanın qələbəsinə hər imkanları ilə mane olmağa çalışan, bu gün isə xalqımızın bu şanlı zəfərinə ləkə vurmağa çalışanlar elə tarixin zibil yeşiyinə atılmalıdırlar. Bunu tarix və zaman tələb edir. Bunu xalqımızın və dövlətimizin mənafeyi, müqəddəs amallarımız tələb edir.

***Hüseyn Paşayev,***
***YAP Siyasi Şurasının üzvü,***
***Əməkdar jurnalist***

# Dövlət Sərhəd Xidməti həqiqi hərbi xidmətə qəbul elan edır



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) həqiqi hərbi xidmətə qəbul elan edır. Xidmətin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, DSX-də həqiqi hərbi xidmət keçmək arzusunda olan vətəndaşlar xidmətə qəbul olunmaq üçün sənədlərini təqdim edə bilərlər. Namizədlər müddətli həqiqi hərbi xidmət keçmiş olmalı, yaşı 35-i keçməməli, fiziki cəhətdən sağlam olmalıdırlar. Müraciət etmək istəyən kişi namizədlərin DSX-nin Aparatına və ya yaxınlıqda yerləşən hərbi hissələrin kadr bölmələrinə yaxınlaşması xahiş olunur (Ünvan: Bakı şəhəri, Z.Əliyeva küçəsi 30, əlaqə nömrəsi: 012-493-62-47).

Dövlət Sərhəd Xidməti, həmçinin həqiqi hərbi xidmətə və işə qəbul elan edır.

DSX-də hərbi tibb sahəsində həqiqi hərbi xidmətə və ya işə qəbul olmaq istəyənlər, eləcə də həkim-terapevt, həkim-ümumi cərrah, həkim-stomatoloq, həkim-sanepidemioloq, həkim-dermatoloq, həkim-infeksionist, həkim-otolarinqoloq, həkim-laborant, feldşer, feldşer-laborant, diş texniki ixtisasları üzrə tibbi təhsili olan vətəndaşlar, Tibb Universitetini bitirmiş, lakin rezidenturaya daxil olmamış həkimlər sənədlərini təqdim edə bilərlər. Xidmətə qəbul olmaq istəyən kişi namizədlər müddətli həqiqi hərbi xidməti keçmiş, fiziki cəhətdən sağlam, Azərbaycan Respublikasının istənilən bölgəsində xidmət etməyə hazır olmalıdırlar. Namizədlər DSX-nin hərbi hospitalına və ya yaxınlıqda yerləşən hərbi hissələrin kadrlar bölmələrinə müraciət edə bilərlər. Əlavə məlumat üçün ünvan: Bakı şəhəri, Z.Əliyeva küçəsi 30.

***Əlaqə nömrəsi: (012) 564-16-92, (012) 493-62-47.***

# Vətən Müharibəsinin ZƏFƏR PARADI

## *Prezident İlham Əliyev: “Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək”*

***Bəli, bu günü - Qarabağ Azərbaycandır! Qələbə Zəfəri ilə keçiriləcək Qələbə Paradının həsrətini düz 30 il idi ki, gözləyirdik. Və sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsində 5 şəhərimizi Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad etdik, Azərbaycanın müzəffər ordusu 5 min kvadrat kilometr ərazisini isə döyüş meydanında heç bir güllə atmadan, şəhid vermədən siyasi meydandakı qələbəsilə qaytartdı.***

Bu böyük qələbəmizdir. Bu qələbə münasibəti ilə keçiriləcək parad həm də o topaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı olacaq. Nəhayət, bu Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının həm siyasət, həm də döyüş meydanında diplomatik siyasətinin, Müzəffər Şanlı Ordumuzun, igid əsgər və zabitlərimizin qanı töküldüyü Qarabağ Azərbaycandır! Müqədəs torpağımızın həsrətinə son qoyulduğu Zəfərin dünyaya nümayiş ediləcək paradı olacaq. Bu parad torpaqlarımızın işğaldan azad olunmasında hərbi texnikamızın, həmin torpaqlarda dalğalanan üç rəngli Bayraqlarımızın nümayiş olunduğu, intizarında və həsrətində olacağımız PARAD olacaq!



### Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır

Azərbaycan son 200 illik tarixində itirdiyi torpaqlarını qaytara bilmədiyi bir halda, Prezident, Ali Baş Komandanımız İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaq görən siyasəti, vətəninə və torpağına olan böyük məhəbbəti, Güclü Ordumuzun, igid əsgər və zabitlərimizin şücaəti ilə torpaqlarımız işğaldan azad edildi. Bu Azərbaycanın tarixi, parlaq qələbəsidir. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Və sübut etdi ki, Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşub. Siyasi meydanında işğalçı düşməni layiq olduğu yerini göstərməklə bərabər bir daha sübut etdi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və bu gün Prezidentin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edildi. Bu tarix Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Və bu gün qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Qürur duyuruq ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. O dəmir yumruq ki, düşmənin başından vurmaqla belini qırdı.

### 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi!

Sözsüz ki, asan yolla qələbə qazanmaq olmur. Bu qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Güclü Ordumuzun, Rəşadətli əsgər-zabitlərimizin igidliyi ilə bu qələbəni qazandıq. Dövlətimizin başçısı İlham Əliyev Laçının işğaldan azad olunması münasibətilə xalqa təbrikində bir daha bildirdi ki, döyüş meydanında, siyasi müstəvidə qazandığımız Qələbə ölkəmiz üçün yeni dövr açır.

### 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi!

8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix...8 noyabr 2020-ci il, Qarabağa qovuşduğumuz tarix gün. Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür!. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu gündür. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə, Paşinyan kapitulyasiya imza atmağa məcbur oldu.

Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən “Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik... Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi” söyləyən dövlətimizin başçısı İlham Əliyev bu fikirlərin davamı olaraq bildirmişdir ki, “Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!”.

Dövlətimizin başçısı onu da bildirib ki, indi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər: “Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!”.

Bəli, dekabrın 10-da bu qələbə sevincimizi Qələbə Paradını keçirməklə qeyd edəcəyik. İşğal olunan torpaqlarda dalğalanan Qələbə bayrağımız da parada gətirilməklə qalib ordumuzun bölmələrini, döyüş texnikalarımızı nümayiş etdirməklə hərbi gücümüzü dünyaya nümayiş edəcəyik. Bu günü xalqımız səbirlə gözləyirdi və bu gün gəldi.

Müdafiə Nazirliyinin məlumatına görə, dekabrın 10-da keçiriləcək Vətən Müharibəsində qələbəyə həsr olunmuş hərbi parada hazırlıq məşqləri davam edir. Azadlıq Meydanında keçiriləcək hərbi paradda 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdiriləcək. Parada, həmçinin, Vətən Müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olunacaq.

Qeyd edək ki, dövlətimizin başçısı xalqa müraciətlərində daim bu məqamı da xüsusi qeyd edir ki, Azərbaycan Silahlı Qüvvələrinin İkinci Qarabağ müharibəsində şanlı Qələbəsi münasibətilə təşkil olunacaq hərbi paradda düşmənin məhv edilmiş və ya qənimət kimi götürülmüş texnikaları da nümayiş olunacaq.

Həmçinin, Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilən zaman Ali Baş Komandan İlham Əliyev çıxışı zamanı bildirmişdi ki, “Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır”.

Bəli, o gün bu gün artıq gəldi. Dekabrın 10-da Azərbaycan Azadlıq Meydanında Qələbə Zəfərinin Qələbə Paradını keçirəcək. Bu parada da “Bir millət, iki dövlət” olaraq Türkiyə-Azərbaycan birliyi də nümayiş olunacaq.

### “Bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür”

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev hələ Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntə-

# Vətən Müharibəsinin ZƏFƏR PARADI

## *Prezident İlham Əliyev: "Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək"*

nəli hərbi parad keçirilən zaman demişdir: "Əziz dostlar, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir.

Yüz il bundan əvvəl Nuru paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlmiş və Bakı







Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır. Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır".

### Prezident Rəcəb Tayyib Ərdoğan: "Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilən zaman demişdir: "Əvvəla, Azərbaycanın müstəqilliyi üçün canlarını fəda edən bütün şəhidlərimizi ehtiramla anırıq, onlara Allahdan rəhmət və ruhlarının şad olmasını diləyirəm. Onlar

fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın əbədi qardaşlığının da rəmzi oldular. Biz dünyanın 34 ölkəsində 78 şəhid məzarlığı olan bir ölkəyik. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Azərbaycan Türkiyədən sonra ən çox şəhidimizin olduğu ölkədir. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir. Böyük şair, mərhum Bəxtiyar Vahabzadənin də bu birliyimizi belə gözəl ifadə edib:

*Bir ananın iki oğlu, Bir amalın iki qolu.*
*O da ulu, bu da ulu, Azərbaycan-Türkiyə.*
*Dinimiz bir, dilimiz bir, Ayımız bir,*
*ilimiz bir,*
*Eşqimiz bir, yolumuz bir,*
*Azərbaycan-Türkiyə.*
*Birdir bizim hər halımız,*
*Sevincimiz-məlalımız.*
*Bayraqlarda hilalımız,*
*Azərbaycan-Türkiyə.*
*Ana yurdda yuva qurdum,*
*Ata yurda könül verdim.*
*Ana yurdum, ata yurdum,*
*Azərbaycan-Türkiyə".*

Bəli, Türkiyə və Azərbaycanın birliyi bu misralarda təcəssüm edən qardaşlığın ən gözəl nümunəsidir. Bu gün də - Vətən Müharibəsinin ilk günündən bu günə kimi, 44-günü Türkiyə Azərbaycanın yanında olub, tarixi Qələbə Zəfərinə birlikdə sevinib. Azərbaycan-Türkiyə həmişə sevincli, kədərli günlərində eyni sevinci, eyni kədəri keçirib və bu gün də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Qələbə Zəfərli Paradında da iştirak edəcək.

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Qarabağda qazanılan zəfər Azərbaycana ana südü kimi halaldır"

"Qarabağda qazanılan zəfər həm beynəlxalq hüquq, həm diplomatik, həm də hərbi baxımdan Azərbaycana ana südü kimi halaldır". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyədə Sarıqamış-Xorasan yolunun açılışındakı çıxışında deyib.

"Azərbaycan kimsənin torpağına əl uzatmadı, göz dikmədi, kimsəyə hücum etmədi. BMT və ATƏT qərarlarına rəğmən 30 il işğal altında saxlanan torpaqlarını azad etdi. Bunu da ermənilər kimi dinc insanların yaşadığı yeri hədəf almaqla deyil, qanun çərçivəsində gerçəkləşdirdi",-deyə Ərdoğan vurğulayıb.

Türkiyə Prezidenti Minsk qrupunun həmsədri olan Fransa parlamentinin verdiyi qərara da öz mövqeyini bildirib. O, Fransa Senatının bu qərarını qalmaqallı adlandırıb: "Qardaşım İlham Əliyevin də dediyi kimi, Fransa erməniləri bu qədər sevirsə, Marseli onlara verə bilər. Heç bir ölkənin başqa bir ölkənin torpaqlarına bu qədər alçaqcasına hücumu qəbul edilə bilməz. Suriyadan Liviyaya qədər hər yerdə bənzər davranışlara yol verən Fransa problemin həllinə çalışdığını deyil, problemin bir hissəsi olduğunu sübuta yetirir. Ən son Livanda da eyni oyunu oynadı və nəticə almadı. Fransanın bu təhlükəli addımlarına beynəlxalq ictimaiyyətin laqeyd qalmayacağına ümid edirəm. Türkiyə hər zaman və hər yerdə olduğu kimi, haqlının, məzlumun yanında olan siyasətini davam etdirəcək".

### Prezident İlham Əliyev: "Biz 100 il öncə də bir yerdəydik və birlik nümayiş etdirirdik, indi də eləyik"

Bu fikirləri Azərbaycan Prezidenti İlhm Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə keçirilən parada deyərək vurğulamışdı ki, Bakı artıq o dövrdə yaşadığı çətinlikləri geridə qoyub və hazırda daha güclü bir Azərbaycan mövcuddur: "Biz bu ilin may ayında AXC-nin 100 illiyini qeyd etdik. Biz Şərqin ilk demokratik respublikasını Azərbaycanın yaratmış olmasından qürur duyuruq. Ölkəmiz böyük çətinliklərlə üz-üzə idi və ərazilərimizə tam nəzarət edə bilmirdik. Bakı və bir neçə başqa şəhərlərimiz işğal altında idi. Hökumətimiz Gəncədə yerləşmiş və orda fəaliyyət göstərmişdi. Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi, Gəncədən Bakıya uzanan qələbə marşı və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu qələbə uğrunda canını fəda edən şəhidlərin xatirəsini daim əziz saxlayacaqdır".

Ordumuzun hazırkı gücünə və döyüş hazırlığı səviyyəsinə də toxunan prezident qeyd edib ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və bu sona qədər də belə qalacaq: "Bu gün güclü ordumuzun Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında, həmçinin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində keçirilən uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda dalğalandırdığı bayraqlarımız Azadlıq meydanına gətiriləcəkdir. Gün gələcək Azərbaycan bayraqları bu gün hələ də işğal altında olan bütün torpaqlarımızda qaldırılacaqdır".

Bəli, o gün artıq bu gün oldu. Dekabrın 10-da İkinci Vətən Müharibəsinin qələbə paradı keçiriləcək. Paradda həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş olunmaqla yanaşı, işğaldan azad edilmiş torpaqlarda dalğalandırdığı bayraqlarımız Azadlıq meydanına da gətiriləcəkdir.

Və bu Qələbə Parad Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılacaq! Qarabağ Azərbaycandır!.

QƏLƏBƏ PARADIMIZ MÜBARƏK OLSUN!

***RƏFİQƏ KAMALQIZI***

# Qafqazın sənət məbədi öz ahənginə qovuşur

***Sənəti yaşadan, yaradan xalqımızın böyük ustadları, korifeyləri, dahiləri olub. Bu torpağın yetirmələri olan böyük sənətkarların nəfəsində, ruhunda böyük dünya yaşayıb - vətən dünyası. Bu dünyadan yaranan irs zamanın hökmündən, dünyanın diqtəsindən yoğrulub. Ana laylası kimi qanımıza hopub. Həzin, lirik, vətən sevgili - həsrətli, üsyan qoparan, mücacilə ruhu oyadan sənət dünyamızdan eşidilən hisslər ovqatımızı kökləyib. Yurdumuzun hər daşına, qalasına hopub. Azərbaycan musiqisini belə möhtəşəm edən nəsillərin sorağı, qəhrəmanlığı, vüqarı, ləyaqəti kimi dəyərlərdir. Bu dəyərlərin vəsfi, musiqiyə, nota köçürülməsi, sərhəd tanımayan dünyanı dolaşması böyük ustadların istedadından qaynaqlanıb. Azərbaycanın sənət beşiyi sayılan Qarabağdan yetişən musiqiçilərimizin sayı kifayət qədərdir ki, onların yaradıcılığı öz orijinallığı ilə seçilir.***

Əbəs yerə deyil ki, Qarabağının Şuşa şəhəri musiqisinə görə Avstriyanın Vyana, İtaliyanın Neapol şəhərlərilə eyni səviyydə dayanır. XIX əsrin sonu və XX əsrin əvvəllərindəŞuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. Zaqafqaziyanın konservatoriyası olan Şuşa. Mir Möhsün Nəvvabın, Hacı Hüsünün, Sadıxcanın, Məşədi İsinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məmmədin, İslam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Məşədi Cəmil Əmirovun, Qurban Primovun, Üzeyir Hacıbəyolinin, Zülfüqar Hacıbəylinin, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Əşrəf Abbasovun, Rəşid Behdudovun və daha kimlərin, kimlərin boy atdığı bir məkandır. Hər ifada duyulan səs ilk olaraq Şuşadan eşilib, sonralar pərvazlanıb, sonu bilinməyən məkanlarda tanınıb, seçilib və sevilib. Tarixə nəzər salsaq görərik ki, 1752-ci ildə Pənahəli xan tərəfindən əsası qoyulmuş şəhər Azərbaycan mədəniyyətinin mərkəzlərindən biri kimi tanınıb. Şuşa şəhərinin tarixi mərkəzində olan binalardan 72-si Azərbaycan tarixində iz qoymuşşəxslərin yaşayış evləri və ya ev muzeyləridir. Dağlıq Qarabağ müharibəsi dövründə bu sənət məbədləri dağıdılıb, yandırılıb, tanınmaz hala salınıb.



### ERMƏNİ VANDALLARININ MƏDƏNİ İRSİMİZƏ VURDUĞU ZƏRBƏ

Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganəŞərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.




250 illik tarixi olan bu şəhərində XX əsrin əvvəllərinədək Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda dahi bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsindəprofessional musiqi təhsilinin bünövrəsi qoyulur. Azərbaycanın digər şəhərlərində olduğu kimi Şuşada da dövlət tərəfindən musiqi ocaqları açılmağa başlayır. Bunların da professional musiqimizin inkişafında, görkəmli bəstəkar və ifaçılarımızın yetişdirilməsində rolu böyük olmuşdur.

Şuşada 1922-ci ildən mədəni - maarif texnikumu da fəaliyyət göstərmişdir. Texnikumda 80-nə yaxın müəllim 600-dən çox tələbənin təhsili ilə məşğul olmuş və texnikumun məzunları nəinki Şuşada, Qarabağın başqa şəhərlərində də fəaliyyət göstərmişlər. Şuşada XX-ci əsrdə ilk musiqi məktəbi məhz indiki Şuşa incəsənət məktəbidir. Şuşa 2 saylı musiqi məktəbi isə 1990-cı ildə təşkil olunub. Bu məktəblərlə yanaşıŞuşa musiqi məktəblərinin miqyası genişlənmiş və 6 kənddə musiqi məktəbi açılmışdır. Malıbəyli, Turşsu, Quşçular, Xəlifəli, Qala dərəsi və Xanallar kənd musiqi məktəblərini qeyd etmək olar. Yuxarıda adları qeyd olunan texnikum və musiqi məktəblərinin hamısı erməni qəsbkarlarıŞuşanı işğal etdikdən sonra, yəni 1992-ci ildən əsasən Bakı- şəhərində fəaliyyətlərini davam etdirirlər. Xanallar kənd musiqi məktəbi isə Mingəçevir şəhərində yerləşir.

### "CIDIR DÜZÜ"NDƏ "QARABAĞ ŞİKƏSTƏSİ" SƏSLƏNƏCƏK

Musiqi, mədəniyyət beşiyi olan Şuşadaənənəşəklini almış "mahnı bayramları" yayın gəlişi iləŞuşaya təşrif gətirən respublika əhalisinin gur vaxtına təsadüf edirdi. "Mahnı bayramı" Mədəniyyət evlərindən, klublardan, teatr səhnələrindən başlayaraq Cıdır düzündə yekunlaşardı. Şuşanın kəndləri vəşəhərdə fəaliyyət göstərən musiqi məktəblərinin şagird və müəllimləri, özfəaliyyət kollektivləri vəŞuşadan kənarda yaşayan tanınmışşuşalı musiqiçilər, şairlər, teatr xadimləri, pəhləvanlar və hətta məzhəkəçilər Cıdır düzünə toplaşardılar. 1989-cü ildə Cıdır düzündə bitən Xarı Bülbül çiçəyinin rəmzi adı ilə bağlı I-ci "Xarı Bülbül" Beynəlxalq musiqi festivalı keçirilib. Bu festivala 15-dən çox xarici ölkə xalqlarının folklor musiqi kollektivləri dəvət olunub. 1990-cı ildə 2-ci "Xarı Bülbül" Beynəlxalq festivalı, ermənilərin Şuşa şəhərini daima atəşə tutması iləəlaqədar olaraq Bərdə və Ağdaşşəhərlərində keçirilib. Lakin ənənə halını almış bu festival bədxah qonşuların Qarabağa edilən təcavüzü nəticəsində sonralar keçirilməyib.

Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşub. Toy-büsatlı Şuşamızda yeni dünya, dövr, həyat başlanır. Artıq hər kəs rahatlığa qovuşub. Ruhu göylərdə dolaşan şəhidlərimiz də, sənət xadimlərimiz də. Şuşadan gətirilmiş Üzeyirin, Nətəvanın, Bülbülün R.Mustafayev adına Azərbaycan Dövlət Muzeyində saxlanılan heykəlləri də rahatlıq tapıb. Şuşanın musiqi və mədəni həyatı öz əvvəlki ahənginə qovuşur.

Qarabağda, Şuşada, onun "Cıdır düzü"ndə, "İsa bulağı"nda yenə "Qarabağ şikəstəsi" səslənəcək, yenə xalq mahnıları oxunacaq və bu musiqinin içində qələbə ruhumuz eşidiləcəkdir. Azərbaycan Bayrağı da bu avazda dalğalanacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Leonardo da Vinçi Antalya zəlzələsini 500 il əvvəl öncədən görübmüş

***Egey və Aralıq dənizində baş vermiş zəlzələlər bəzi mənbələri yenidən oyadıb. 2020-ci ilin son aylarında baş vermiş titrəmələr haqqında alimlərin araşdırmaları daha çox diqqət çəkir. Prof. Dr. Nihat Dipova intibah dövrünün ən təsirli şahidlərindən biri olan Leonardo da Vinçinin gündəliyində Antalyada 500 il sonra baş verəcək textonik hadisə barədə yazıldığını iddia edib.***



SİA-nın məlumatına görə, Akdeniz Üniversiteti Mühəndislik Fakültəsinin professoru Dr. Nihat Dipova qeyd edib ki, rəssamlıqla yanaşı mühəndis və geologiya elmlərindən dərin anlayışı olan Leonardo da Vinci Antalya barədə qeydlərində burada bir sunaminin olacağını gündəliyinə qeyd edib. Prof. Dr. Dipova da Vinçinin gündəliyində Antalyada böyük bir zəlzələnin olacağını, dənizin çəkiləcəyini, dibindəki çatın görünəcəyini və bu müddətin 3 saata qədər davam edəcəyi barədə yazdığını söyləyib.

Bu yaxınlarda İzmirdə dağıntılara səbəb olan və 114 adamın həyatını itirdiyi, 1035 adamın yaralandığı 6,5 ballıq zəlzələ bir daha diqqəti bu məsələyə çəkib. 3 tərəfi dənizlələr əhatələnən Türkiyədə mütəxəssislər sunami də ola biləcəyini dilə gətirməsi ilə sahil ətrafında yaşayan insanlar baş verə biləcək sunami fəlakəti zamanı necə qoruna biləcəklərin öyrənməyə başlayıblar.

***Aysel Məmmədova***

# "Qələbə paradı orudumuzun əzəmətini bütün dünyaya göstərəcək"



"Azərbaycan ikinci Qarabağ savaşında möhtəşəm qələbə qazanıb. Nəhayət ki, işğal altında olan torpaqlarımız öz azadlığına qovuşub, ərazi bütövlüyümüz təmin olunub və bu qələbənin əsas memarı Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev və qəhrəman ordumuzdur". Bunu SİA-ya açıqlamasında Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev deyib. Onun sözlərinə görə, indi bu böyük hadisənin nəticəvi hissəsini əks etdirəcək, 10 noyabr Qələbə paradına hazırlaşırıq: "10 noyabr paradı bizim qəhrəman orudumuzun əzəmətini bir daha bütün dünyaya göstərəcək. Ən əsası: biz bu paradı çox şükürlər olsun ki, qalib kimi keçirəcəyik. Zəfərimizi qeyd edəcəyik. İllərdir gözlədiyimiz ana nəhayət şahidlik edəcəyik".

E.Musayev onu da bildirdi ki. Ali Baş Komandan bundan öncəki paradda da, bütün çıxışlarında da bəyan etmişdi ki, Azərbaycanın ərazi bütövlüyü mütləq bərpa olunacaq, erməni işğalçılar Azərbaycanın əzəli torpaqlarından qovulacaq: "Dediyi kimi də oldu. Prezident İlham Əliyev bizi qələbəyə doğru apardı. Öz məqsədyönlü, düşünülmüş, uğurlu siyasəti ilə. Öz bacarığı ilə. Öz qətiyyəti ilə. Eşq olsun Ali Baş Komandana. Eşq olsun Azərbaycan ordusuna. Qələbə Azərbaycan xalqının haqqı idi və bu haqqına da qovuşdu. Qələbə Paradı möhtəşəm olacaq. O paradda iştirak etmək üçün indidən səbrsizlənirəm, Şükürlər olsun bu günə".

***Gülyana***

# Fransa Senatından təxribat - beynəlxalq hüquqa hörmətsizlik

## Fransada ağıllı adam bu qədər azdır? Yoxsa Senat saxta yolla seçilib?




Fransanın rəsmi olaraq tanıdığı başqa bir dövlətin ərazi bütövlüyünü pozmağa cəhd, bu niyyətlə hakimiyyətin fəaliyyətə keçməsinə çağırış edilməsi - bütün bunları Fransa Senatı edib. 305 senator qondarma qurumun "tanınması" ilə bağlı qətnamənin lehinə səs verib. Yalnız bir nəfər buna qarşı çıxıb.

Keçmişinin heç də hamısı qara səhifələrdən ibarət olmayan Fransa bu 305 senatorun ümidinə qalıb? Bəs seçicilər niyə seçdiklərinin qanunu pozmasına reaksiya vermir?

Noyabrın 18-də Fransa Senatına erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamə layihəsi təqdim edilib, layihə cəmi bir neçə gün sonra - noyabrın 25-də tələsik formada Senat tərəfindən müzakirəyə çıxarılıb və qəbul olunub.

Fransa Senatının qəbul etdiyi qətnamə sənədinin mətnindən də aydın olur ki, senatorları Dağlıq Qarabağın erməni əhalisinin taleyindən daha çox Türkiyənin və Azərbaycanın getdikcə güclənməsi, sarsılmaz birlik nümayiş etdirməsi narahat edir. Dağlıq Qarabağ münaqişəsinin tərəfləri Ermənistan və Azərbaycan olsa da, Türkiyənin adı qətnamədə daha çox çəkilir.

Senat bu yolla türkə, müsəlmanlara qarşı düşmənliyini gizlədə bilmir. Birinci Dünya savaşı illərində, sonrakı dövrdə Afrikada Türkiyədən aldığı ədalətli cavabların heyfini bu kağızla çıxmağa səy edir.

Fransa Senatında qondarma rejimlə "diplomatik münasibətlərin qurulmasını" nəzərdə tutan "qətnamə" layihəsinin müzakirəsi fikir mübadiləsindən daha çox 12 senatorun qərəzli, reallıqdan uzaq, birtərəfli çıxışı ilə tarixə düşdü.

Çıxışlardan aydın oldu ki, Fransa Senatının bir çox üzvünün müharibənin başa çatmasından, tərəflər arasında razılıq əldə edilməsindən xəbəri belə yoxdur. Bəzi senatorların millitarist bəyanatlarını başqa cür izah etmək mümkün deyil. Məsələn, senator Stefan Ravie deyib ki, Fransadakı erməni gənclər vətənlərinə dönərək vuruşmaq istəyirlər, onların yolu açılmalıdır, Fransa QHT-ləri bu işdə onlara yardımçı olmalıdır.

Dağlıq Qarabağ münaqişəsinin detalları haqqında heç bir təsəvvürü olmayan, münaqişənin hazırkı mərhələsindən xəbərsiz olan, hətta çıxışları belə dinləməyən senatorlar səsvermədə fəal iştirak ediblər. Bu, açıq şəkildə əvvəlcədən planlaşdırılmış təxribatdır.

Həmin senatorlar Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Qarabağın harada yerləşdiyindən, tarixindən belə xəbərsizdirlər.

Layihənin ideya müəllifləri ermənilərin Fransada kompakt yaşadığı regionlardan olan senatorlardır. Həm sənədin müəlliflərini, həm də ona səs verənləri daha çox qarşıdan gələn seçkilərdə Fransa ermənilərinin səsləri və erməni lobbisinin dəstəyi maraqlandırır.

Səsə görə öz dövlətinin maraqlarını satan senatora ağıllı demək olarmı?! Bəs senatorlar dövlətin təhlükəsizliyi, milli maraqları, ölkənin erməni olmayan müsəlman vətəndaşlarının azadlığını niyə nəzərə almırlar? Fransanın ayağı büdrəsə, ilk zərbəni onlara elə bu erməni lobbisi vuracaq. Ermənilərin böhranlı vəziyyətlərdə böyük dövlətlərə vurduqları zərbəyə aid tarixdə çoxlu faktlar var. Görünür, 305-lik hələ qəflət yuxusundan oyanmayıb.

Əlbəttə, Fransa dövlətinin xarici siyasətini Senat yox, hökumət müəyyən edir. Senatın qərarları isə tövsiyə xarakteri daşıyır. Sənədin hüquqi qüvvəsi olmasa da, siyasi anlamı vardır. Senatın belə bir qətnamə qəbul etməsi, Azərbaycanla ikitərəfli münasibətlərə ciddi xələl gətirməklə yanaşı, özünü demokratik dəyərlərin müdafiəçisi elan edən Fransanın tarixinə qara səhifə kimi həkk olur. Onlar münaqişəli məsələlərdə dövlətlərinin tutacağı neytral mövqeyin üzərinə kölgə saldılar. Vasitəçi mandatı daşıyan bir ölkənin belə bir qətnamə ilə çıxış etməsi ölkənin bitərəfliyini ciddi şübhə altına alır. Bu həmçinin Azərbaycan ictimaiyyətində Fransanın ədalətli vasitəçi olmadığı rəyini formalaşdırdı.

Fransanın Xarici İşlər Nazirliyi yanında parlament məsələləri üzrə dövlət katibi Jan Batist Löman da sənədin Fransanın dövlət mənafeyinə, ATƏT-in Minsk qrupunun həmsədri kimi mandatına uyğun olmadığını etiraf edib.

Azərbaycan Respublikasının Fransadakı səfiri qətnamənin səsvermədən bir gün öncə Senatın dinləmə proseduralarına uyğun olaraq, Senat üzvləri qarşısında çıxış edib və qətnamə təklifi ilə bağlı, burada əks olunan birtərəfli və həqiqətə uyğun olmayan məqamlarla bağlı ətraflı məlumat təqdim edib. Buna rəğmən, Senat tərəfindən tamamilə qərəzli qətnamənin qəbul edilməsi, yalnız təxribat kimi qiymətləndirilə bilər.

Rəsmi Bakının bildirdiyi kimi Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin növbəti təzahürü olan bu qətnamə Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. Bu, adi kağız parçasından başqa bir şey deyil. Heç bir qüvvə, o cümlədən Fransa Senatı Azərbaycan Ordusunun öz ərazilərindən çıxarılmasını tələb edə bilməz.

Fransa Senatı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunması, mülki əhalinin qətlə yetirilməsi, işğalçı dövlətin torpaqlarımızda etnik təmizləmə, ekoloji terror, qeyri-qanuni məskunlaşma və qanunsuz iqtisadi fəaliyyətlər aparmasına qarşı 30 il susqun mövqe nümayiş etdirib.

Senatın Ermənistan silahlı qüvvələri sıralarında Fransa vətəndaşları olan muzdluların Azərbaycan ərazilərində döyüşlərdə iştirak etməsinə heç bir münasibət bildirməməsi suallar doğurur.

Fransa Senatı Ermənistan tərəfindən çox sayda mülki əhalisi qətlə yetirilmiş, kəndləri, qəsəbələri və şəhərləri raket atəşinə tutulmuş Azərbaycanı vicdansızcasına ittiham edir. Bu Senat Ermənistanın Gəncə, Tərtər, Goranboy, Ağcabədi, Bərdə, Mingəçevirdə dinc əhalini raket atəşinə tutmasına münasibət bildirməyib.

Bu qətnamənin qəbulu Fransa siyasəti və parlamentarizmi üçün olduqca utancverici bir addımdır. Qətnamənin mətnində münaqişənin bütün tarixi, siyasi və hüquqi aspektləri təhrif edilir.

Fransanın da üzv olduğu BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasına dair 4 qətnamə qəbul edib. Azərbaycan bu qətnamədən irəli gələn vəzifəsini icra edib. Ona görə də Fransa hakimiyyəti Senatın bu qətnaməsini qınayan bəyanatla çıxış edib, Azərbaycanın ərazi bütövlüyünə dəstəyini açıq şəkildə ifadə etməlidir. Bu halda Fransa beynəlxalq hüquqa və münasibətlərə hörmət göstərmiş olar.

*Sədrəddin İsmayılov*
*Newtimes.az*

# "8 noyabr - Haqqın, ədalətin, bütövlüyümüzün qələbəsi"



***Güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən Ulu Öndər Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir.***

Məhz elə buna görədir ki, 17 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl LİDER ömrüdür. Prezident İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan LİDERDİR.

Bu gün Azərbaycan Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyv cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazır". Bu fikirləri SƏS qəzetinə açıqlamasında YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev deyib. Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı döyüşlərdə bərkiyə-bərkiyə, azadlığa yetmək üçün haqq yolunda, Vətən yolunda canından keçərək yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirdi ki, biz haqq yolunda, öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək!".

Çünki Qarabağ bizim əzəli torpağımızdır. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, "Qarabağ Azərbaycandır və nida işarəsi". Bu günlərdə 30 illik arzularımız, xəyallarımız, yuxularımız gerçəyə çevrildi! 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi! 8 noyabr 2020-ci il... Bu tarix Qarabağa qovuşduğumuz, Qələbə tariximizdir".

S.Əliyev onu da vurğulayıb ki, Müzəffər Ordumuz 44 gün ərzində döyüş meydanında gücünü göstərdi və qəhrəmanlıqla savaşaraq qələbə qazandı: "Ali Baş Komandanımızın qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırıldı və 8 noyabr şanlı tariximizə Qələbə günü kimi yazıldı. Qarabağın tacı, ölkəmizin ən dilbər guşələrindən biri, muğamımızın beşiyi Şuşa mənfur düşmən tapdağından qurtuldu. 10 noyabr gecəsi isə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bəli, o gün Dağlıq Qarabağ münaqişəsinə nöqtə qoyulduğu gün oldu. 30 illik münaqişə 44 gündə Azərbaycanın qələbəsi ilə bitdi. 44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...

30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində Vətən savaşı qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Bu, Azərbaycan xalqının milli qürurunun təntənəsinə çevrilən Qələbə kimi tariximizə həkk olundu".

"Azərbaycanın müzəffər ordusu öz sözünü döyüş meydanında deməklə parlaq qələbəyə imza atmışdır. Qeyd etdiyim kimi ölkəmizin ərazi bütövlüyü təmin olundu. İndi isə Vətən Müharibəsindəki böyük qələbəmizi dekabrın 10-da Qələbə Paradı keçirməklə qeyd edəcəyik", - deyən S.Əliyev onu da bildirib ki, Qələbə bayrağımızı parada gətirilməklə qaibb ordumuzun bölmələrini, döyüş texnikalarımızı nümayiş etdirməklə hərbi gücümüzü dünyaya nümayiş edəcəyik: "Çoxlu ölkələr müharibədə Azərbaycanın qələbəsinə inanmırdılar. Amma müzəffər ordumuz döyüş meydanında özünün güclü olduğunu sübut etdi. Dünyanın bir çox ölkələri ordumuzun döyüş strategiyasının öyrənməli olduqlarını bildirirlər. Hamı üçün Azərbaycanın Silahlı Qüvvələrindəki döyüş texnikalarına, ordu birləşmələrinə marağı çoxalmışdır. Düşünürəm ki, keçirəcəyimiz Qələbə Paradmız dünya tərəfindən maraqla və ən çox izlənəcək parad olacaqdır".

***R.HÜSEYNOVA***

# Ermənistanda vətəndaş müharibəsinin başlanacağı tarix bəllidir

## Yaxud, Türkiyəyə qarşı "koalisiyada" yer alacağını bəyan edən erməni müxalifəti Rusiyaya da meydan oxuduğunun fərqinə varmır



Bu gün Ermənistan siyasi ictimaiyyətinin Qarabağ məsələsində hələ də Rusiyadan pənah umması qeyri-reallığı, daha dəqiq desək, dağılmış erməni stereotipi - mövcud olmayan "dqr"in, yaxud "artsaxın" ətrafındakı var-gəlləri digər məsələləri də önə çıxarmaqdadır. Daha dəqiq desək, üçtərəfli atəşkəs bəyannaməsinin imzalanmasından sonra baş nazir Nikol Paşinyana qarşı başladılan müxalifət hərəkatının liderləri onun anti-Rusiya siyasətini, xəyanətini önə çıxarmaqla, Kreml vasitəsi ilə hakimiyyətə yiyələnib, məhz bu yolla öz xam xəyallarını yenidən gerçəkləşdirəcəklərinə sadəlöhvcəsinə inanır, xalqı da bu istiqamətdə hərəkət etməyə çağırırlar. Əbəs deyil ki, Ermənistanın 17 partiyasının bir araya gələrək ölkənin nimdaş siyasi şinelindən çıxmış Vazgen Manukyanı artıq "baş nazir" statusunda görür, "keçid hökuməti" qurmaqla mövcud problemlərindən qurtulacaqlarını, hətta Azərbaycanın işğaldan azad etdiyi Qarabağı və ətraf rayonları "geri qaytaracaqlarını" bəyan edirlər.

## On illər, hətta yüz illər boyunca əzən bu cür ucuz, xəyalpərəst təfəkkür hələ də onların ayılmalarına səbəb olmayıb

Maraqlı məqamlardan biri də budur ki, "diplomatik uğursuzluq" ittihamlarını da önə sürən erməni müxalifəti nədənsə Ermənistanın mövcud vəziyyətinin hansı səbəblərdən belə bir günə düşməsinin günahını əvvəlki hakimiyyətlərdə axtarmaqdan vaz keçirlər. Yəni bu gün Ermənistan rüsvayçı məğlubiyyət reallığında çabalayırsa, bunun əsas günahlarından biri və birincisi bütün hakimiyyətlər dövründə Azərbaycana qarşı tətbiq edilən təcavüzkarlıq siyasəti və işğal faktıdır. Ermənistan rəhbərliyinin hələ SSRİ tərkibində olarkən Azərbaycanın ərazi bütövlüyünə qarşı başlatdığı işğalçılıq siyasəti Levon Ter-Petrosyan iqtidarında sürətləndi və sonradan Robert Koçaryan, ardınca isə Serj Sarqsyan hakimiyyətləri ilə davam etdi. Bu barədə yenidən hər hansı faktları, tarixi həqiqətləri vərəqləməyə ehtiyac yoxdur, çünki 30 il boyunca mövzu ətrafında kifayət qədər danışılıb, yazılıb, şərhlər verilib.

Beləliklə, 17 partiyanın bir araya gəldiyi və Nikol Paşinyan iqtidarını devirməyə hesablandığı kütləvi etiraz dalğası əsasında yuxarıda qeyd edilən amillər dayanır və ən maraqlısı (!) bu amillərdən biri də gələcəkdə Türkiyəyə qarşı "yaranacaq" hansısa "koalisiyada" yer alıb, yenidən Qarabağ torpaqlarını, hətta Türkiyədəki əraziləri işğal etməkdir. Əslində, erməniləri on illər, hətta yüz illər boyunca əzən bu cür ucuz, xəyalpərəst təfəkkür hələ də onların ayılmalarına səbəb olmayıb. Çünki dünyanın qloballaşması, geosiyasi coğrafiyasının dəyişməsi, xüsusilə Qafqaz regionunda yeni oyunçuların, yeni şərtlərin yaranması erməni "təfəkkürünün" quyu dibində qaldığını isbatlamaqdadır.

## Tarixlərdən gələn sübut onu göstərir ki, Türkiyə ilə Rusiya ən kritik dönəmlərdə bir araya gələrək, regionda əsas oyunçulara çevrilirlər

Tarixən belə olub və əslində, ermənilər unudurlar ki, əgər Türkiyəyə qarşı yarana biləcək hər hansı "koalisiyada" yer alacaqlarsa, bu zaman pənah umduqları Rusiyaya qarşı da çıxmalı olacaqlar. Yəni yeni dünyanın yeni geopolitoloji vəziyyəti, həm də tarixlərdən gələn sübut onu göstərir ki, Türkiyə ilə Rusiya ən kritik dönəmlərdə bir araya gələrək, regionda əsas oyunçulara çevrilirlər. Bu gün də Suriya və Yaxın Şərq siyasətində hər iki ölkənin müəyyən fikir ayrılıqları olsa belə, strateji maraqlarının üst-üstə düşməsi gerçəkliyi ortadadır.

## Sergey Lavrov: "Rusiya ilə Türkiyə arasında münasibətlər öz siyasətini reallaşdırmaq üçün iki müstəqil ölkənin birlikdə necə çalışdığına nümunədir"

Yenə də elə uzağa getməyərək, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun bəyanatını xatırladaq. "Bizim Türkiyə ilə prinsipial fikir ayrılığımız yoxdur", deyən Rusiya XİN idarəsinin rəhbərinin sözlərinə görə, ölkələr hər şeydə razılığa gələ bilməz və hər hansı bir dövlətə münasibətlərdə fərqli mövqelər olacaq: "Türkiyə ilə münasibətlərimiz yaxşı qonşuluq və bir-birimizin maraqlarını nəzərə almağa əsaslanır. Bundan əlavə, enerji sektorunda çoxmilyonluq layihələrimiz, həmçinin hərbi-texniki əməkdaşlıqda işbirliyimiz var. Əminəm ki, Rusiya ilə Türkiyə arasında münasibətlər öz siyasətini reallaşdırmaq üçün iki müstəqil ölkənin birlikdə necə çalışdığına nümunədir. Onlar heç kimin qarşısında əyilmirlər, ultimatum irəli sürmürlər, kənardan təsirlərə məruz qalmırlar. Odur ki, Türkiyənin NATO-ya üzvlüyü bizim üçün heç də maneə deyil".

Bu halda, Vazgen Manukyanın Qarabağla bağlı imzalanmış üçtərəfli bəyannamə ilə razılaşmayacaqları fikri, eləcə də Türkiyəyə qarşı "koalisiyada" yer alacağı iddiası Rusiyanın da əleyhinə işləmirmi? Yaxud, Manukyanın gülünc düşüncəsi dolayısı ilə devirmək məqsədi daşıyan Paşinyan iqtidarının anti-Rusiya siyasətini davam etdirmək niyyətini ortaya çıxarmırmı?

## Dmitri Peskov: "Prezident Putin də deyib ki, Qarabağ hətta Ermənistanın özü tərəfindən də tanınmayıb"

Onsuz da son proseslər elə Rusiyanın da Qarabağla mövqeyini kifayət qədər sübuta yetirib. Bir müddət əvvəl Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bəyan etməsi ermənilərin əsrlərdir davam edən ucuz təfəkkürlərini puç edib.

Yaxud, bir neçə gün əvvəl Vladimir Putinin mətbuat katibi Dmitri Peskovun jurnalistlərlə söhbəti əsnasında irəli sürdüyü fikirlərinə diqqət yetirək. SİTAT: "Rusiya Dağlıq Qarabağın statusu ilə bağlı mövqeyini dəyişməyib və digər ölkələr kimi bu ərazinin kimə məxsus olması Təhlükəsizlik Şurasının qətnamələri ilə çoxdan müəyyən olunub. Rusiyanın heç bir fikri dəyişməyib, eləcə də digər ölkələrin də fikirləri dəyişilməyib. Prezident Putin də deyib ki, Qarabağ hətta Ermənistanın özü tərəfindən də tanınmayıb".

Beləliklə, hazırda Ermənistanda Qarabağ məğlubiyyətindən doğan, eləcə də cərəyan edən proseslər bilavasitə hakimiyyət uğrunda gedən savaşdır və bu savaşın vətəndaş müharibəsinə keçid etməsi faktı isə günü-gündən daha çox artmağa başlayır. Hətta bu müharibənin başlanacağı tarix də bəllidir - 8 dekabr, 2020-ci il...

***Rövşən RƏSULOV***

# “Köçəryanın, Sarkisyanın faşist mifləri yerlə-yeksan oldu”

***“Tarixdən çox yaxşı məlumdur ki, erməni xalqının qəhrəman saydıqları hər kəs öz “qəhrəmanlıqlarını” yalnız və yalnız dinc azərbaycanlılara qarşı göstəriblər. Belələri Azərbaycanın mülki əhalisinə, qadın və uşaqlara etdikləri vəhşilikləri ilə yadda qalıblar. Ermənilər heç vaxt Azərbaycan Ordusu ilə üzbəüz və təkbətək döyüşərkən qalib gəlməyiblər. İndi Ermənistanda başda Köçəryan və Sarkisyan olmaqla, bir qrup cinayətkar Qarabağdakı məğlubiyyətə görə mövcud siyasi hakimiyyəti günahlandırır. Lakin 30 il ərzində Ermənistanda formalaşan dövlətçilik məhz bu iki şəxsin yarıtmaz siyasətlərinin nəticəsidir”. Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib.***



Politoloq qeyd edib ki, söhbət təkcə Xocalıdan getmir. Məhz onların göstərişi ilə Qarabağın ayrı-ayrı rayonlarında erməni hərbçilər torpaqları işğal edərkən mülki əhalinin çıxmasına icazə vermək əvəzinə, onlara qarşı ən çirkin əməllər törədib. Tarix ədalətlidir. Nə yaxşı ki həmin bu canilər indi Qarabağın Azərbaycan Ordusu tərəfindən azad edilməsini öz gözləri ilə gördülər. Bəs nə oldu, niyə 90-cı illərdən fərqli olaraq bu dəfə onlar müharibədə döyüşmədilər? Çünki o zamanlar Azərbaycanın faktiki olaraq ordusu yox idi və ölkəmiz müharibəyə hazır deyildi. Bu qatillər isə fürsətdən istifadə edərək xainlik etdilər. Əgər onlar doğrudan da dedikləri hünərə sahib idilərsə, 44 günlük müharibədə, yəni Azərbaycanla Ermənistan təkbətək vuruşanda niyə meydanda yox idilər? Çünki onların bizə qarşı döyüşməyə hünərləri çatmadı. Köçəryanın, Sarkisyanın faşist mifləri yerlə-yeksan oldu.

Zaur Məmmədov bildirib ki, Robert Köçəryan və Serj Sarkisyan bu illər ərzində Ermənistan cəmiyyətini zəhərləyərək “böyük Ermənistan” xülyasını körpələrdən tutmuş qocalara kimi hər kəsə aşılayırdılar. Onlar dəfələrlə gənclər qarşısında çıxışlarında “bizim nəsil Qarabağı aldı, sizlər isə digər torpaqları almalısınız” kimi absurd fikirlər irəli sürərək Ermənistanda Azərbaycana qarşı düşmənçilik əhval-ruhiyyəsini daha da artırıblar. Köçəryan və Sarkisyanın Azərbaycanla bağlı bütün çıxışlarında faşizmin izlərini aydın müşahidə edə bilərik. Beləliklə, Köçəryan və Sarkisyan Ermənistana nə verdilər? Sırf Köçəryan və Sarkisyanın sayəsində, onların xəstə təxəyyülləri nəticəsində erməni cəmiyyəti bugünkü ağır vəziyyətə - mənəvi əlillik vəziyyətinə düşdü. Onlar hər zaman qonşularına qarşı ərazi iddiaları irəli sürüb, bütün dünyanın sanki ermənilərə borclu olduğunu düşünüblər.

Politoloq deyib ki, artıq Cənubi Qafqazda yeni reallıq yaranıb. Azərbaycan Qarabağı azad edərək erməni işğalına son qoydu. Sözsüz ki, Azərbaycanın böyük qələbəsi Robert Köçəryan və Serj Sarkisyan kimi canilər üçün ən böyük sillədir.

***Ceyhun Rasimoğlu***

# Putin və Merkel Qarabağdakı vəziyyəti müzakirə ediblər

***Rusiya Prezidenti Vladimir Putin bazar ertəsi günü Almaniyanın Baş naziri Angela Merkel ilə telefonla Qarabağdakı vəziyyəti müzakirə edib. SİA xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.***



“Dağlıq Qarabağ ətrafındakı vəziyyət ətraflı müzakirə olunub. Vladimir Putin hərbi əməliyyatların dayandırılması üçün həyata keçirilən vasitəçilik səyləri, habelə təmas xətti və Laçın dəhlizi boyunca Bakı və İrəvanın istəyi ilə yerləşdirilmiş rus sülhməramlılarının fəaliyyəti barədə məlumat verib”- məlumatda bildirilib. Söhbət zamanı Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistan Baş nazirinin 9 noyabr tarixli bəyanatında qeyd olunan razılaşmaların ardıcıl şəkildə həyata keçirilməsinin bölgədəki vəziyyətin ümumi sabitləşməsinə kömək etdiyi vurğulanıb.

Tərəflər ATƏT-in Minsk qrupu çərçivəsində gələcək əməkdaşlığa qarşılıqlı hazır olduqlarını bildirdilər. Putin və Merkel ayrıca Qarabağdakı humanitar cavab mərkəzinin işinə beynəlxalq beynəlxalq strukturların cəlb edilməsinin vacibliyini qeyd ediblər. Söhbət zamanı dövlət başçıları silahlı münaiqşədən təsirlənmiş əhalinin problemlərinin həll edilməsinin vacibliyini vurğulayıblar. “Bu baxımdan, Rusiya tərəfindən yaradılan Humanitar Müdaxilə Mərkəzinin işinə ixtisaslaşmış beynəlxalq strukturların cəlb edilməsinin vacibliyini qeyd ediblər”, - deyə mətbuat xidməti əlavə edib.

***Elçin***

## Ter-Petrosyandan vətəndaş müharibəsi XƏBƏRDARLIĞI

***Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan baş nazir Paşinyan və onun yerinə göz dikən Manukyana qan tökülməsinin təhlükəsi barədə xəbərdarlıq edib. SİA Ermənistana məxsus armeniasputnik.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Levon Ter-Petrosyana görə, baş nazirin, eləcə də rəqiblərinin hərəkətləri və ritorikası daxili qarşıdurmalara gətirib çıxarır.***

Məlumatda bildirilir ki, Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan müxalifətin baş nazirliyə namizədi Vazgen Manukyanın mitinqdəki çıxışındakı bəzi məqamları şərh edib.



Qeyd edək ki, sonuncu, xüsusilə, “baş nazir Nikol Paşinyanın istefası nə qədər tez olarsa, onun özü üçün daha yaxşı olacağ”ını bildirib və qeyd edib ki, müxalifət hərəkatı qalib gəlməzsə, qəzəbli insanlar Paşinyanı sadəcə parçalayacaq. Ter-Petrosyana görə isə, müxalif siyasətçinin ağzından çıxan bu ifadə son dərəcə təhlükəlidir, hansı ki, şiddət və vətəndaş müharibəsi üçün zəmin yaradır. “Bunlar sadəcə sözlər olsaydı, narahatlıq üçün çox az səbəb ola bilərdi. Ancaq Manukyanın minlərlə tərəfdarları olan izdihamın baş nazir iqamətgahını əhatə etməsi şiddətə açıq bir hazırlıqdan başqa bir şey deyil”, deyə Ter-Petrosyan, “İlur.am” saytında verdiyi açıqlamada diqqətə çatdırıb.

O, baş nazirin tutduğu mövqeyi heç də az təhlükəli hesab etmir və hesab edir ki, Paşinyanın da ritorikası və davranışı onun vəzifəsindən ayrılmaq istəməməsini və qarşıdurmaya hazır olduğunu göstərir. Ter-Petrosyana görə, hər iki tərəf inadında qərarlı olarsa, münaqişə qaçılmazdır. Ermənistanın birinci prezidentinə görə, həm Paşinyan, həm də Manukyan ağıllarına görə deyil, təbiətinə, macəraçı meyllərinə və sona çatmaq üçün bir maniyaya görə eyin tərzdədirlər.

“1996-cı ildə Manukyan, 2018-ci ildə Paşinyan olmaqla hər ikisinin də, parlamentə “basqın” etmək təcrübəsi genişdir. Ancaq 2018-ci ildə Ermənistan hakimiyyəti Paşinyana postu tapşırmışdısa, bu gün mövcud baş nazirin bənzər bir addım atmağa ən kiçik bir hazırlıq göstərməməsi açıq-aşkar görünür”, deyə eks-prezident bildirib.

Xatırladaq ki, Paşinyanın özü də getməli olduğuna əmindir. Ancaq o millət daxilində qarşıdurmalar, vətəndaş müharibəsi yolu ilə deyil, konstitusiya mexanizmləri çərçivəsində getsə erməni cəmiyyətinə də, özünə də yaxşı olar. Təsadüfi deyil ki, keçmiş dövlət başçısı xalqı hakimiyyət və ya müxalifətin başlatdığı təxribatların iştirakçısı olmamağa çağırır. Çünki, fərqindədir ki, bu işğalçı ölkə vətəndaş müharibəsi astanasındadır.

***İnam Hacıyev***

## Ermənistan demoqrafik faciə qarşısındadır

Son günlər Ermənistan əhalisinin azalması, iqtisadiyyatın çökməsi və qalan əhalinin çox acınacaqlı vəziyyətə düşməsi barədə məlumatlar yayılır. Bildirilir ki, cari il yanvarın 1-nə olan məlumata görə, Ermənistanın daimi əhalisinin sayı 2 milyon 959,7 min nəfər təşkil edib. SİA xəbər verir ki, bu barədə məlumatı Ermənistanın Milli Statistika Xidməti yayıb.

Bildirilir ki, 2019-cu ilin əvvəli ilə müqayisədə ölkə əhalisinin sayı 5,6 min nəfər, yaxud 0,2 faiz azalıb. Qeyd olunub ki, Ermənistanda əhalinin sayının cari qeydiyyatı, əhalinin təbii artımı və miqrasiyası barədə məlumatlar 2011-ci ildə keçirilmiş son siyahıyaalmanın nəticələri əsas götürülərək aparılıb. Mütəxəssislər və ekspertlər hesab edirlər ki, Ermənistan əhalisinin sayı növbəti illərdə daha da azalacaq. Buna səbəb ölkədə yoxsulluğun səviyyəsinin artması, ölkə iqtisadiyyatının çökməsi kimi dəlillər göstərilir. Bildirilir ki, hazırda Ermənistanın xarici dövlət borcu ümumi daxili məhsulun 60 faizindən çoxdur. Bu isə ölkə iqtisadiyyatının tənəzzülü deməkdir.

Qeyd olunur ki, Azərbaycanla müharibədə Ermənistana bir neçə milyard dollar həcmində ziyan dəyib və bu da ölkə iqtisadiyyatını daha da çökdürüb. İndi hökumət əhalinin sosial vəziyyətini düzəltmək və sosial müdafiə layihələrini həyata keçirmək iqtidarında deyil. Ölkə əhalisi vəziyyətdən çıxış yolunu yenə də ölkədən qaçmaqda, başqa dövlətlərdə iş axtarmaqda görür.

Ermənistan mətbuatı yazır ki, son iki ildə minlərlə sakin vətəndaşlıq almaq üçün xarici ölkələrə üz tutub. Müharibədəki məğlubiyyət və cəmiyyətdə yaranmış xaos, qorxu insanların xaricə axınını daha da artırıb.

Bəzi məlumatlara görə, təkcə son günlər ərzində dünyada və Ermənistanda hökm sürən koronavirus pandemiyasına baxmayaraq, yüzlərlə insan artıq Ermənistanı tərk edib. Bu axının 2021-ci illərdə daha atacağı və 100 mini keçəcəyi gözlənilir.

Ekspertlərin fikrincə, Ermənistanda demoqrafik böhran daha da dərinləşəcək. Hökumət isə bu faktları əhalidən gizlətməklə, yalan vədlər verməklə, ordu quruculuğu və müharibə təhlükəsi ilə insanların fikrilərini yayındırmağa çalışır.

***Ceyhun Rasimoğlu***

# Ermənistan konstitusion dəyişikliklərə gedir



***Ermənistan Konstitusiya Məhkəməsi parlament müxalifətinin konstitusiya dəyişikliklərinin həyata keçirilməsinə dair bəyanatını baxılması üçün qəbul edib. SİA xəbər verir ki, bu barədə “Maariflənmiş Ermənistan” fraksiyasının lideri Edmon Marukyan parlament dinləmələrindəki çıxışında bildirib.***

“Maariflənmiş Ermənistan”dan digər millət vəkili Taron Simonyan qeyd edib ki, bəyanat, ölkə parlamenti tərəfindən iyul ayında qəbul edilən konstitusiyaya edilən dəyişikliklərlə əlaqədardır.

Parlamentdə əksəriyyəti təşkil edən Nikol Paşiyanın “Mənim addımım” blokundan olan millət vəkilləri bu vəzifədə 12 ildən çox işləmiş Konstitusiya Məhkəməsi hakimləri, eyni zamanda məhkəmə sədri Hrayr Tovmasyana səs vermişdi. Hökumət Tovmasyanı konstitusiyaya dəyişikliklərlə bağlı referendum yolu ilə əvəzləyəcəkdi, lakin o, koronavirus səbəbiylə ləğv edildi. Bundan sonra parlament konstitusiyanı (Konstitusiya Məhkəməsi hakimləri seçimi baxımından) müstəqil olaraq dəyişdirməyə qərar verdi. Sonra Konstitusiya Məhkəməsinin üç yeni üzvü namizəd göstərildi və parlament tərəfindən seçildi, məhkəmənin sədri Hrayr Tovmasyan adi hakim olaraq keçdi (onun yerinə Arman Dilanyan seçildi).

Bundan sonra, müxalifətçi “Maariflənmiş Ermənistan” Konstitusiya Məhkəməsindən ümummilli referendum olmadan parlamentdə konstitusiya maddələrinin dəyişdirilməsinin nə qədər qanuni olduğunu araşdırmasını tələb etdi. Bu məsələ 9 fevral 2021-ci il tarixdə Konstitusiya Məhkəməsində müzakirə ediləcək.

***Aysel Məmmədova***

# Paşinyan hakimiyyətində "yarpaq tökümü"

***Qarabağdakı müharibənin ermənilər üçüm məyusedici nəticələri Ermənistanda daxili siyasi böhrana səbəb olub. Ermənistan vətəndaşları həm məğlubiyyət acısını yaşayır, həm aldadılaraq alçaldıldıqlarından hiddətlidirlər, həm də iqtisadi böhranın, sosial vəziyyətlə bağlı açınacaqlı yaşayışlarından da beziblər. Bütün bunların fonunda, üstəlik vətəndaş müharibəsi, qarşıdurmalarla da üz-üzədirlər. Elə bu vəziyyətlə əlaqədar olaraq məsuliyyətdən boyun qaçırmaq üçün istefalar bir-birinin ardınca gəlir, hökumət başçısı Nikol Paşinyanın tərəfdarlarının sıraları nəzərəçarpacaq dərəcədə azalır. Ermənistanın baş nazirinin komandasında belə istefalar, bu kimi vəziyyət normal hala çevrilib.***



Şirakın qubernatoru Vardan Qriqoryanın, bir qədər əvvəl Syunik bölgəsinin qubernatoru Hunan Poqosyanın da istefası erməni cəmiyyətinə bəlli oldu. Onlardan əvvəl Qayane Abramyan, Taqui Tovmasyan, Arsen Julfalakyan, Qor Qevorqyan və başqaları deputat mandatlarından belə imtina etdilər və hakim partiyanın sıralarını, yəni Paşinyanı tərk etdilər. Sanki, Ermənistanın hakim partiyasında, Paşinyan hakimiyyətində "yarpaq tökümü" müşahidə edilir və bu bütün erməni cəmiyyətinin, eləcə də dünyanın gözü qarşısında baş verir. Bu da təəcüblü deyil və aydındır ki, gövdə silkələnəndə ağacdan, onun budaqlarından yarpaqlar tökülməlidir.

Ermənistanın baş naziri Nikol Paşinyan "sükanı" hələ də əlində saxlamağa çalışır. Ermənistan ictimaiyyətinin istefa tələblərinə məhəl qoymayan Nikol küçə nümayişləri və adını inqlab qoysa da əslində, reallaşdırdığı dövlət çevrilişi sayəsində qamarladığı postu, baş nazir postunu təhvil vermək niyyətində deyil. Ancaq erməni baş nazir eyni zamanda onu da nəzərə almalıdır ki, ağırlıqlara, təsirlərə və təzyiqlərə qarşı müqavimət yalnız müəyyən bir həddə qədər mümkün ola bilər. Bunu da nəzərə almaq yerinə düşərdi ki, təzyiqlər artmaqda davam edir, miqyası da böyüməkdədir.

Hər şeyə qərar verməli olan, ən azından belə qərarlar vermək iqtidarında olan kadrlar niyə gedirlər? Ölkələrinin ən acınacaqlı, eyni zamanda taleyüklü dövründə niyə ancaq başlarını götürüb uzaqlaşırlar? Niyə belə bir anda siyasi səhnəni tərk edirlər? Daha dəqiq desək, niyə aradan çıxırlar? Qərar vermək iqtidarında olanlardan indi ölkə ictimaiyyəti çıxış yolu ola biləcək qərarlar gözlədikləri məqamda niyə qərarlar verib xalqı çətin andan xilas etmirlər? Çünki, çox zaman qərarı onlar verməyiblər. Çünki, onların yerinə də baş nazir qərar verib. İndi də qərar verməl追ərinə Nikol qəti şəkildə imkan vermir. Kimsə başını qaldırıb nəyə isə burnunu soxanda, Paşinyan onun burnunu yaxşıca əzişdirib. Ümumiyyətlə, bu işğalçı ölkədə hər şeyə qərarı Nikol özü verib və hələ də təkbaşına, özü istədiyi kimi qərar verməkdə davam edir. O, ağlına gələn qərarı verir və son dərəcə bundan razıdır. Amma, görək erməni cəmiyyəti bundan razıdırmı? Xeyr. Əks halda meydanlar boş olardı, belə izdihamla onun istefası tələbi irəli sürülməzdi.

Maraqlıdır, bəzi siyasətçilər baş nazir Nikol Paşinyana ünvanlanaraq ölkədəki acınacaqlı vəziyyəti izah etməsini tələb edirlər. Bu vəziyyətdən çıxış yolu istəyirlər. Hətta bəyan edirlər ki, hazırda Ermənistan adlı bu dövlətin xarici borcu həddsiz səviyyədədir və ölkənin durumu bundan sonra nəinki borcun qaytarılması, hətta bundan sonra bir qədər də əlavə borclanmanın olacağını təsdiq edir. Siyasətçilər erməni baş nazirinə ünvanlanaraq sual edirlər ki, belə olan halda hansı dövlətdən söhbət gedir? Hətta, Ermənistanın bir dövlət kimi özünü qoruya bilməməsi, vətəndaşlarını təmin edə bilməməsi fonunda niyə saxlanıldığı sualı da qoyulur. Bildirilir ki, əgər Ermənistan dövlət olaraq mövcud ola bilmirsə, gedib hansısa bir dövlətin daxilinə girsin və vətəndaşlar qorunsun.

Həqiqətən də çox acınacaqlı haldır. Bir ölkə vətəndaşının dövlətinin olmamasını, yaxud dövlətçiliyinin həddən artıq zəif, gücsüz, acınacaqlı vəziyyətdə olmasını görərək, bunu anlayaraq dövlətçiliyindən əl üzməsi çox acınacaqlıdır. Suverenliyindən, müstəqilliyindən əl çəkərək hansısa dövlətin daxilinə sığınmaq istəyi, ən azından fikri əbəs yerə formalaşmayıb. Bunun əsası var. Əsas da ki, göz önündədir. Amma Nikol üçün bütün bunlar sanki görünmür, qısa bir müddətlik baş nazir postu onun üçün hər şeydən üstündür.

Bu arada Nikolu, onun komandasını, hakimiyyətini tərk edənləri anlamaq, başa düşmək çətin deyil. Çünki, Paşinyandan fərqli olaraq onların hər biri başa düşür ki, Qarabağ məğlubiyyətindən sonra Paşinyan üçün heç də yaxşı dövr gəlməyib. Başa düşürlər ki, qarşıdurma onun siyasi gələcəyi üçün, ümumiyyətlə, varlığı üçün belə təhlükəli bir xarakter alıb. Etiraf edək ki, hər kəs uğursuzluqların məsuliyyətini bölüşməyə hazır deyil. Buna hazır və razı olmayanların sayı indi bu işğalçı ölkədə bax buna görə durmadan artır. Məhz buna görə də bu məqamda təəccüblü bir şey yoxdur. Bələki, Ermənistan hakimiyyətini, Nikol Paşinyanı tərk edənlər olub, var və bundan sonra da olacaq.

*İnam Hacıyev*

## Robert Koçaryan: "Nikolun xalqına zərrə qədər hörməti varsa, rədd olsun"

***Baş nazir Nikol Paşinyanın siması Ermənistanın Qarabağ müharibəsində biabırçı məğlubiyyətini simvolizə edir. SİA Ermənistana məxsus armenianreoport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistanın eks-prezidenti Robert Koçaryan 5-ci kanala müsahibəsində deyib.***



"Kapitulyasiyanı imzalayan hakimiyyət xalq adına, xalqa görə dəyişdirilməlidir. Paşinyan hər canlı yayımında, hər ekranda görünüşündə göstərir ki, biz uduzmuş xalqıq", deyə eks-prezident bildirib.

Onun sözlərinə görə, xalqı ən azından rüsvayçılıqdan, xəcalətdən xilas etmək üçün Nikol Paşinyan getməlidir ki, erməni xalqı özünü sön dərəcə uduzmuş hesab etməsin.

"Onsuz da başqa cür ola da bilməz. Nikolun sifətində məğlubiyyət, ağrı tam ifadə olunur. Biz isə hər gün bu məğlubiyyəti, bu ağrını duymaq məcburiyyətindəyik? Əgər Nikolun öz xalqına zərrə qədər hörməti varsa, rədd olsun. Əgər özünün və ailənin təhlükəsizliyindən qorxursa, bu da təmin olunacaq", deyə Koçaryan bəyan edib.

## Laçın erməniləri çar-naçar qalıblar

"Bizim tələbimiz budur: "Berdzorun" (bundan sonra Laçın) dəqiq statusu: o ermənilərindir, yoxsa yox". SİA news.am-a istinadən xəbər verir ki, bunu etiraz aksiyasında Laçından Ermənistana köçmüş Nelli Tatosyan deyib.

"Əgər Laçın ermənilərin deyilsə, onda "Artsaxın" (Qarabağın) yerdə qalan hissəsində artıq bu gün də olan daha ciddi problemlər yaranır. Əgər Laçın ermənilərindirsə, indi nəyə görə onun "Artsaxın" ərazisi olduğu deyilmir, təhlükəsizliyə zəmanət verilməlidir, infrastrukturlar işləməlidir ki, sakinlər öz evlərinə geri dönsünlər", deyən erməni etirazçı qadın əlavə edib ki, bu suallara rəsmi cavablar verilməyib.

Qapı-pəncərələr sökülüb, qaz boruları, elektrik dirəkləri demontaj olunub, yerdə qalanı isə ermənilərin özləri tərəfindən oğurlanıb

"Mən oradan ayın 30-da saat 18:21-də çıxmışam. Belə təəssürat yaranırdı ki, ora heç də ermənilərə qalmır. İnsanlara o qədər qeyri-müəyyən cavablar verdilər ki, onlar öz pəncərə və qapılarını çıxartdılar, bəziləri isə heç ona da vaxt tapa bilmədilər, çünki onlar artıq oğurlanmışdı", deyən erməni qadın ermənilərin özləri tərəfindən edilən talanlarla yanaşı deyib ki, hətta yaxın kəndlərin qaz borularının, elektrik dirəklərinin də demontaj olunub. "Əgər sağdan və soldan 2 km məsafədə düşmən yaşayırsa, hətta neytral xətt də yoxdursa, demək orada yaşamaq təhlükəlidir", Nelli Tatosyan bildirib.

Xatırladaq ki, erməni işğalından azad olunmuş Laçın dekabrın 1-də Azərbaycana təhvil verilib və oranı Ermənistanla birləşdirən dəhlizə Rusiya sülhməramlıları nəzarət edirlər. Qalan hissəsi isə Azərbaycan Ordusunun tam nəzarəti altındadır.

*Rövşən RƏSULOV*

## Paşinyana və komandasına humanitar dəhliz təklif edilir?

### Elinar Vardanyan: "Ermənistan adına addım at - "Mənim addımım"dan çıx"

Ermənistanın "Alternativ layihələr qrupu"nun analitiki, deputat Elinar Vardanyan ölkəsinin ikinci prezidenti Robert Koçaryanın Nikol Paşinyana humanitar dəhliz açması ilə bağlı müsahibəsində səsləndirdiyi fikrini şərh edib. SİA xəbər verir ki, bu barədə yazan tert.am saytı yazır.



"İkinci prezidentin dünənki müsahibədən sonra Ermənistan əhalisinin böyük hissəsi yata bilməyib. Bu, son zamanların ümumerməni yuxusuz gecələrindən biri idi. Lakin bir məqamın üzərində dayanmaq istərdim", qeyd edən Vardanyan xatırladır ki, Koçaryanın çıxışının bir fraqmenti Paşinyana və "Mənim addımım" fraksiyasına aid idi. SİTAT: "Koçaryan onların təhlükəsizliyi üçün humanitar dəhlizin açılması mühümlüyündən danışıb. Hakim fraksiyadakı həmkarlarıma müraciət edirəm: sülh yolu ilə gedin, sizin sülh yolu ilə, dağıdıcılıq törətmədən getmək imkanınız var. Ermənistan adına addım at - "Mənim addımım"dan çıx. Fraksiyadan çıxacağınıza görə sizə satqın kimi tanınacağınız, təhlükə yaşayacağınız barədə deyilənlər yalandır. Hörmətli həmkarlar, Nikolun sizi aldatmağınıza imkan verməyin, Nikolun sizin vasitənizlə ölkədəki vəziyyəti destabilizə etməyə, sizin hesabınıza şəxsi məsələlərini həll etmək cəhdlərnə imkan verməyin. Sadəcə, məğlubiyyətə düçar olmuş fraksiyadan çıxın, sülh şəraitindəki həyatınızı yaşamağa, bu şəraitdə əmək fəaliyyətinizi davam edin".

### Erməni deputat: "Onun sizin vasitənizlə ölkəni təlatümlərə sürükləmək planlarının olduğunu istisna etmirəm, ona bunu etməyə imkan verməyin!"

"Hələ ki, böhranı sülh atmosferində həll etməyə imkan var, bunu edin", deyə qeyd edən Vardanyan əlavə edib: "Gözünüzü açın! Nikol artıq yoxdur. Nikola görə Şuşanın, Hadrutun olmaması ola bilməz, hansı ki, o hakimiyyətdə idi. Onun sizin vasitənizlə ölkəni təlatümlərə sürükləmək planlarının olduğunu istisna etmirəm, ona bunu etməyə imkan verməyin! Bir daha Koçaryanın müsahibəsinin sizə aid olan həmin hissəsinə qilaq asın. Nikolu tanıdığınıza görə sizə məlum olmalıdır ki, əvvəl-axır o dar dəhliz təklifindən istifadə etməklə sizi göyərtədən kənar qoya bilər".

### "Əliyevə reaksiya verməyən Paşinyan Koçaryana necə cavab verməsi barədə düşünür"

Elinar Vardanyan yazısının sonunda P.S. qoyaraq əlavə edib: "Əliyevin təhqirlərinə heç cür reaksiya verməyən Paşinyan bundan fərqli olaraq, Koçaryana necə cavab verəcəyi ətrafında yatmayaraq bütün gecəni fikirləşib. Paşinyan öz müraciətində inandırmağa çalışıb ki, 1994-cü ildən diplomatik uğursuzluqlar olub. Paşnyan hələ də anlamadı ki, diplomatik uğursuzluqlar, ya da uğurlar müharibə ilə müəyyən edilir. Paşinyan hələ də etiraf etmək istəmir ki, müharibədə minlərlə ölənlərin, itkin düşənlərin əsas səbəbi onun diplomatik uğursuzluqlarıdır".

*Rövşən*

# Ermənistan: Fəlakətə aparan yolda

**_Qarabağ qaçqınlarının çoxu geri qayıtmır, onlar Azərbaycanın geri qaytardığı ərazidə qalmaq istəmirlər_**

***Nikol Paşinyan faktiki kapitulyasiya aktının imzalanması barədə vətəndaşlara sosial şəbəkədəki səhifəsi vasitəsilə məlumat verib. Tvitter Donald Tramp üçün nədirsə, Feysbuk da Ermənistanın baş naziri üçün həmin şeyə çevrildi: xalqla əsas ünsiyyət kanalı. Bu, “məxməri inqilab” günlərindən bəri tətbiq olunur.***

Paşinyan qərarını arxa cəbhədə müharibənin gedişini dəyişə biləcək döyüşə hazır qüvvələrin olmaması ilə izah etdi. Qarabağdakı müharibə beləcə sona çatdı. 26 il ərzində ermənilər özlərini qalib hesab etdilər və Qarabağa sahib olmağı milli fikir səviyyəsinə qaldırdılar. İndi insanlar milli fəlakətlə üzləşirlər, dağılmış və itirilmişlər.

Minlərlə erməni İrəvan meydanlarına toplaşaraq Paşinyanın istefasını tələb edir. Keçmiş milli kumirin reytinqləri çöküb. Parlament koalisiyası dağılır. Baş nazir, yalnız rəqiblərini birləşdirə bilmədiyi üçün, yalnız ətalətlə hakimiyyətdə qalır. Dünənki tərəfdarları Paşinyanı xəyanətdə və yalanda günahlandırırlar. Ancaq hərbi uğursuzluq bir çox cəhətdən mövcud siyasət kursunun təbii nəticəsi idi və bu yaxınlarda siyasətçilərdən və kütlələrdən geniş dəstək aldı.

## Müharibəyə hazır deyildilər

Birinci Qarabağ müharibəsində qazanılan qələbə, 1991-ci ildən sonra yaranan Ermənistan dövlətinin müasir milli kimliyinin formalaşmasında mərkəzi mövzu oldu. Bununla, Türkiyədəki erməni qırğını ilə bağlı erməni cəmiyyətində hələ də davam edən faciəvi xatirələri kompensasiya etdi.

Ermənistan tarixinə dair məktəb dərsliklərində vətənpərvərlik ideologiyası üstünlük təşkil etdi. Erməni xalqının zəngin tarixi və mədəniyyəti ilə ən qədimlərindən biri olduğu fikri daim aparıcı oldu. Və Qarabağ bir növ qədim tarixə malik dini mərkəzləri olan Məkkə kimi təsvir edildi. Azərbaycanla müharibədəki qələbə yalnız tarixi torpaqların qaytarılması və tarixi ədalətin bərpası kimi deyil, həm də milli azadlıq tarixi kimi təqdim edildi. Bu, xalqın özünüdərkində və respublikadakı bütün sosial mühitdə iz buraxdı. Qarabağın saxlanılması heç bir siyasətçinin etiraz etməyə cəsarət etmədiyi bir doqma oldu.

Korrupsiya mövzusunun belə hərbi-vətənpərvərlik cəhəti var idi. Paşinyan Sarkisyana korrupsiyaya görə hücum edəndə, ölkənin müdafiəsini sarsıtdığını iddia etdi. “Tənqidlər Ermənistanın 2016-cı il aprel döyüşləri zamanı özünü yaxşı aparmadığına əsaslandı”- Qafqaz Problemləri və Regional Təhlükəsizlik Mərkəzinin baş tədqiqatçısı Vadim Muxanov deyir. O, hesab edir ki, bu hadisələr Qarabağ istehkamlarının Azərbaycan üçün əlçatmaz olduğu haqda əsas erməni mifinə zərbə oldu.

Paşinyanın hakimiyyətə gəlməsinə böyük ölçüdə vətənpərvər və militarist mövqelərdən hakimiyyəti tənqid etməsi kömək etdi. Əvvəlki rejimin səhvlərini düzəldə bilən və erməni xalqının qabiliyyətlərinə olan inamını bərpa edə biləcək bir lider imici yaratmağa çalışdı. Bu, ermənilərin əksəriyyətinin vətənpərvərlik hisslərinə hörmət idi və diasporla qarşılıqlı əlaqə üçün vacib idi. Baş nazir gələcəkdə Qarabağı Ermənistanın bir hissəsi kimi gördüyünü söylədi.

Paşinyana yaxın hərbi ekspertlərdən heç biri Azərbaycanla genişmiqyaslı müharibə olacağını proqnozlaşdırmırdı. 2016-cı ilin dördgünlük müharibəsi kimi kiçik toqquşmalar oldu, amma bundan artıq nəsə baş vermədi. Xalqda olduğu kimi, Paşinyanın ətrafında da xoşbəxt əhval-ruhiyyə üstünlük təşkil edirdi. Uzun müddətdir baş nazirin səlahiyyətli bir hərbi müşaviri belə yox idi. Vadim Muxanov deyir: “Bu vəzifəyə hər zaman müxtəlif insanlar təyin edildi. Və yalnız müharibə ərəfəsində Vaqarşak Harutyunyan təyin edildi”.

Hüquq-mühafizə orqanlarında personal sıçrayışı başladı. 2020-ci ildə Milli Təhlükəsizlik Xidmətinin direktoru Eduard Martirosyan, Polis rəisi Arman Sarkisyan və ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan heç bir izahat verilmədən vəzifəsindən azad edildi. Sərhəd qoşunlarının komandiri polkovnik Vaqinak Sarkisyan və Milli Təhlükəsizlik Şurasının əks-kəşfiyyat şöbəsinin rəisi general Ovannes Karumyan da vəzifələrini itirdilər. Ermənistanda çoxları üçün bu tamamilə sürpriz oldu. Bəlkə də, hərbi ekspert İqor Korotçenkonun da qeyd etdiyi kimi, rəhbərlərin vəzifələrindən uzaqlaşdırılmasının səbəbi onların Rusiya xüsusi xidmət orqanları ilə sıx təmaslarda olmasıdır.

Məğlubiyyətdən sonra Müdafiə Nazirliyinin hərbi nəzarət xidmətinin keçmiş rəhbəri Movses Hakobyan respublika hakimiyyətini münaqişə ərəfəsində ordunun düşünülməmiş optimallaşdırması ilə məşğul olmaqda ittiham etdi. Bu çərçivədə 5 artilleriya polku ixtisar edildi. Bundan əlavə, pula qənaət etmək üçün bəzi rotalar azaldıldı, bəzi komandalarda döyüşçülərin sayı 11-dən 9-a endirildi. Lakin Ermənistan Müdafiə Nazirliyi bu məlumatları təkzib etməyə tələsdi və ölkənin təhlükəsizliyi ilə bağlı gizli məlumatların açıqlanmasına görə cinayət məsuliyyətinə işarə etdi.

Paşinyan korrupsioner məmurların büdcəyə qaytarılmış vəsaitinin ordunun ehtiyaclarına gedəcəyini söylədi. Ancaq müdafiə büdcəsi kiçik olaraq qaldı. 2020-ci ildə hərbi büdcə, demək olar ki, 1 il əvvəl olduğu kimi, 625 milyon dollar idi. Hakopyan, həmçinin, Paşinyan hökuməti dövründə edilən bəzi hərbi satınalmaları tənqid etdi. Məsələn, 2019-cu ildə, gücünüə görə Azərbaycan MiG-29-larından üstün, lakin Qarabağ ərazisindəki müharibə üçün lazımsız olan və istifadə edilməyən 4 bahalı Su-30SM alındı. Mövcud büdcədə hava hücumundan müdafiə sistemlərinin modernləşdirilməsi, daha səmərəli zenit sistemlərinin alınması üçün də vəsait çatışmırdı. Müharibə dövründə pilotsuz təyyarələrin istifadəsi Azərbaycana səma üzərində qəti üstünlük verdi. Ermənistanda döyüş dronları yox idi. Hərbi ekspert Boris Rojinin sözlərinə görə, yalnız 2016-cı ilin aprelindəki qarşıdurmaların dərsləri deyil, son illərdəki digər münaqişələrin təcrübəsi də nəzərə alınmadı.

Problemlər təkcə ordunun texniki təchizatı ilə əlaqələndirilməyib. Bir çoxları müharibənin əvvəlində elan edilən ümumi səfərbərliyə, əslində, yuxarıdan əngəl edildiyini qeyd etdilər. Cəbhəyə getmək üçün Ermənistana gələn diaspora nümayəndələri dayandırıldı. Bir çox erməni ordu bölməsi yerləşmə yerlərini tərk etmədi. Eyni zamanda, hökumət vətənpərvərlik kampaniyalarına enerji sərf etməyə davam etdi. Paşinyanın həyat yoldaşı Anna Hakobyan və digər 13 qadının 45 günlük hərbi təlim keçərək Dağlıq Qarabağda döyüşməyə gedəcəyi açıqlandı. Ancaq müharibə Paşinyanın qohumları hərbi sıralardakı yerini tutmadan bitdi.

Bu gün çox şey Paşinyanın hərbi əməliyyatlara hazırlaşmadığını söyləyir. “Bəlkə də hərbi müstəvidəki status-kvo onu qane edirdi”- Vadim Muxanov deyir.

## Nikol, çıx get!

Müharibədəki itki Paşinyanın reytinqini aşağı saldı. Adı əbədi olaraq hərbi məğlubiyyətlə əlaqələndiriləcəkdir. Baş nazirin əvvəlki populyarlığını bərpa edə biləcəyi ehtimalı yoxdur. Onu dəstəkləyən koalisiya dağılır. Səkkiz nazir artıq vəzifələrindən ayrılıb. Məyusluq İrəvan küçələrinə tökülüb.

Baş nazirə qarşı yalnız Ermənistan sakinləri deyil, bəlkə də hökumət üçün ən böyük təhlükə Qarabağdan olan qaçqınlardır. Qarabağ ermənilərinin çoxu Azərbaycanın geri qaytardığı ərazilərdə qalmaq istəmirlər. İnsanlar evlərinə od vurub gedirlər. Noyabrın əvvəlində Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyan ölkəyə artıq 50 mindən çox Qarabağ qaçqınının gəldiyini söylədi. Bu, Qarabağdakı ümumi əhalinin təxminən 1/3-i təşkil edir.

Müharibə zamanı Ermənistan hakimiyyəti qaçqınlara kömək etmək üçün özlərini çox narahat etmədilər. Ən yaxşı halda onlara ev tapmaqda kömək etdilər. Və yaşayış və yemək xərcləri, bir qayda olaraq, ya qaçqınların özlərinə, ya da onları sığınan otel və ya sanatoriya sahiblərinin çiyinlərinə düşdü. Ancaq indi fors-major vəziyyət qalıcı bir sosial problemə çevrilə bilər.

Yaxın gələcəkdə Ermənistan ərazisinə qaçqın axını yalnız artacaqdır. Bu, onsuz da ciddi hərbi zərbələr yaşayan Ermənistan iqtisadiyyatı üçün ciddi bir problem yaradacaqdır. Əlavə sosial yük büdcənin üzərinə düşəcək. Qaçqınların yalnız köçürülməsi deyil, həm də Paşinyanın vəd etdiyi lazımi humanitar yardım, geyim, qida, ödənişləri təmin etməsi lazımdır. İşgüzar və qonaqpərvər erməni cəmiyyəti dövlətin iştirakı olmadan uzun müddət onlara dəstək ola bilməyəcəkdir.

Əmək bazarında əlavə çətinliklər yaranacaqdır. Qaçqınlar üçün kifayət qədər iş yoxdur. Onların az miqdarda əmək haqqı almaq üçün ixtisassız iş görməyə hazır olmaları ölkədə onsuz da az olan maaşları aşağı sala bilər.

Sosial-iqtisadi problemlər onsuz da kəskin olan siyasi böhranı daha da dərinləşdirəcəkdir. Hərbi məğlubiyyət, kütləvi narazılıq və Paşinyanın reytinqlərinin çökməsi müxalifət qüvvələrinə güclü təkan verdi. Son vaxtlara qədər inqilabın lideri o qədər geniş dəstək almışdı ki, az adam onun gedişinə açıq şəkildə qarşı çıxmağa cürət edirdi. İndi demək olar ki, dünənki bütü tənqid etməyən siyasətçi qalmayıb.

Bu gün küçələrdə ən köhnə nasist partiya “Daşnaksütyun” və qərbyönümlü parlament partiyası “Maariflənən Ermənistan” əsas rol oynayır. Paşinyanın dəstəklədiyi millətçi hisslər yalnız müharibədəki məğlubiyyətdən sonra gücləndi. Revanşist duyğular kompleksi formalaşır. Radikal millətçilərin gəlişi xarici siyasətdə kəskin dəyişiklik demək ola bilər. Ancaq Rusiya ilə olan fasilə Ermənistanı son müttəfiqsiz qoyacaq. Ölkə Türk hərbi bloku ilə üz-üzə olacaq. Cəmiyyət də bunu yaxşı bilir.

“Məxməri inqilab” tərəfindən hakimiyyətdən uzaqlaşdırılmış Rusiyapərəst müxalifətin digər bir hissəsi də revanş götürməyə çalışır. Ancaq bu, onların populyarlığının tez bir zamanda qayıdacağı anlamına gəlmir. Paşinyandakı məyusluq Ermənistanın keçmiş elitasının xoşuna gəlmir. Bu blokda kifayət qədər yeni populyar siyasətçi yoxdur.

Bütün bu ziddiyyətlər üzərində tarazlaşan Paşinyan hələ də hakimiyyətdə qalır.

*Elizaveta Smirnova*
*“Expert” jurnalı 48-ci nömrə (1186)*
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

8 dekabr

## Robert Levandovski 2020-ci ilin ən yaxşı futbolçusu seçilib



***Polşa millisinin və Almaniyanın "Bavariya" klubunun hücumçusu Robert Levandovski 2020-ci ilin ən yaxşı futbolçusu seçilib. Futbolçu "FourFourTwo" nəşrinin keçirdiyi sorğunun qalibi olub. 101 ölkənin hərəsindən bir jurnalistin qatıldığı səsvermədə R.Levandovski bütün rəqiblərini qabaqlayıb.***

2020-ci ildə "Bavariya" ilə Almaniya çempionu, kubok və Superkubokun qalibi olan hücumçu Çempionlar Liqası və UEFA Superkubokunu da başı üzərinə qaldırıb. Qeyd edək ki, Levandovski Çempionlar Liqası, Bundesliqa və Almaniya kubokunda mövsümün bombardiri adına yiyələnib.

## "Barselona"dan son 33 ilin ən pis startı



"Barselona" bu mövsüm keçirdiyi 10 oyunda cəmi 4 qələbə qazanıb. Belə ki, Kataloniya təmsilçisi 2 heç-heçəyə imza atıb, 4 məğlubiyyətlə üzləşib.

Komanda hazırda 14 xalla 20 kollektiv arasında 9-cu pillədə qərarlaşıb. Bu, "Barselona"nın son 33 ildə mövsümə ən pis startıdır. Komanda sonuncu dəfə 1987/88 mövsümündə bundan da pis başlanğıca imza atıb. Həmin mövsümdə komanda 13 xallıq startla yadda qalıb.

## Qadına qarşı soyğunçuluq edən şəxs saxlanılıb

Bakının Binəqədi rayonu S.S.Axundov küçəsində naməlum şəxs paytaxt sakini olan qadının içərisində pul və mobil telefon olan çantasını soyğunçuluq yolu ilə talayaraq hadisə yerindən qaçıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, zərərçəkən qadının müraciəti əsasında ərazinin yaxınlığında olan Binəqədi Rayon Mühafizə İdarəsinin əməkdaşları həmin şəxsi təqib edərək "isti izlər"lə yaxalanıb. Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsinə təhvil verilən şübhəli şəxsin paytaxt sakini - əvvəllər məhkum olunmuş Niyazi Fərəməzov olduğu müəyyənləşib. Bölmədə onun üzərində axtarış aparılarkən zərərçəkənin çantası, eləcə də pul və mobil telefon aşkarlanaraq götürülüb. Niyazi Fərəməzovun 5-ci polis bölməsində ətrafında əlavə əməliyyat tədbirləri keçirilən zaman onun Binəqədi rayonunda çoxmərtəbəli binaların girişlərindən velosipedlər oğurladığı da məlum olub.

Niyazi Fərəməzov barəsində 5-ci polis bölməsində toplanan materialları Binəqədi Rayon Polis İdarəsinin istintaq şöbəsinə göndərilib. Onun barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir. Saxlanılan şəxsin əməllərindən zərərçəkən başqa vətəndaşlar olarsa, bu barədə ərazi üzrə polis idarə, şöbə və bölmələrinə, habelə DİN-in 102 - Zəng Mərkəzinə

## Həkim: Əvvəlcədən vitamin qəbul edilməsi gələcəkdə xəstələnməməyə təminat vermir



Yeni növ koronavirus (COVID-19) infeksiyası hava-damcı yolu ilə yayıldığından qış aylarında daha çox arta bilər. Qarşıda soyuq ayların olduğunu nəzərə alsaq, infeksiyanın artımı gözlənilən və proqnozlaşdırılandır. Onun qarşısını almaq üçün görülən tədbirlər ümumi respirator infeksiyalara qarşı aparılan tədbirlərdən ibarətdir. Burada başlıca məsələ hər kəsin öz üzərinə düşən məsuliyyəti dərindən anlamaqdan və ona düzgün riayət etməkdən ibarətdir. İlk növbədə, zərurət olmadığı təqdirdə evdən çıxmamaq lazımdır. Küçəyə çıxmaq xəstəliyə yoluxmağa və başqalarını yoluxdurmağa səbəb ola bilər. Hansısa zərurətdən küçəyə çıxdıqda mütləq maskalardan istifadə edilməlidir. Maskalar da bir neçə kateqoriyaya bölünür. Daha yaxşı olar ki, N95 maskalarından istifadə olunsun. Hazırda əhalinin əksəriyyəti cərrahi maskalardan istifadə edir. Əslində həmin maskaların istifadə müddəti 2 saatdır və onlar cərrahi məqsədlər üçün nəzərə tutulub. Onların qoruyuculuq funksiyası o qədər yüksək deyil. N95 maskasının da istifadə müddəti var. Bəzən ondan günlərlə, həftələrlə istifadə edilməsi əlavə problemlər yaranmasına səbəb olur.

AZƏRTAC xəbər verir ki, bunu həkim-infeksionist, tibb üzrə fəlsəfə doktoru Vüqar Cavadzadə yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərindən bəhs edərkən deyib.

Həkim-infeksionist qeyd edib ki, ev şəraitində koronavirusdan müalicə olunan xəstə varsa, ailənin digər üzvləri 14 gün müddətində təcrid olunmalıdır: "Xəstənin ailənin sağlam üzvləri ilə təmasına yol verilməməli, ailədə hamı maska taxmalı, ümumi istifadədə olan otaqlar gün ərzində mütəmadi olaraq dezinfeksiya edilməlidir. Evin havası 2-3 saatdan bir dəyişilməli və digər profilaktik tədbirlər görülməlidir. Nə qədər ki, koronavirus infeksiyasına qarşı peyvənd hazırlanmayıb, o həmişə mövcud olacaq. Hazırlanan peyvənd kifayət qədər səmərəli olmasa, onda bu infeksiya ilə birlikdə yaşamaq qaydasına yiyələnməliyik.

Bunu mütləq nəzərə almaq lazımdır ki, bir xəstə üçün tətbiq olunan müalicə vasitəsi digəri üçün əks göstəriş ola bilər və hətta daha ağır nəticələrə aparıb çıxarar. Ona görə də özünümüalicə üsulundan çəkinmək lazımdır. Ev şəraitində müalicə olunan xəstəyə kompleks yanaşılır. Xəstənin rejimi, qidalanması, yaşı nəzərə alınır. Bundan başqa müalicələr xəstənin vəziyyətinə, yaşına, cinsinə, yanaşı xəstəliklərinə uyğun olaraq aparılır. COVID-19-a yoluxanlar arasında ağır gedən patologiyalar şəkərli diabet, autimmun və onkoloji xəstələr, böyrək çatışmazlığından əziyyət çəkənlər, daha çox piylənməsi olanlardır və onların infeksiyaya yoluxması daha ağır nəticələrə səbəb ola bilər. Müalicəyə başlayanda xəstənin vəziyyəti qiymətləndirilməli və bundan sonra müalicələrə başlanılmalıdır. Müalicənin prinsipləri həddindən artıq çoxdur. Onu qeyd etmək istəyirəm ki, bu gün cəmiyyət üçün daha təhlükəsi olan asimptomatik xəstələrdir və onlarda kliniki əlamətlər müşahidə olunmur. Onlar əsasən 20-25 yaşına qədər olanlardır və immunitetləri möhkəm olduğuna görə xəstələnmirlər, lakin virusu yayırlar. Həmin xəstələr ictimaiyyət içinə çıxdıqda təmasda olduğu hər kəsi virus infeksiyasına yoluxdururlar və test verməyənə qədər həmin şəxslərə qarşı heç bir müalicə tətbiq edilmir".

Onun dediyinə görə, müalicə prosesi zamanı antibiotik və antiviral dərmanların tətbiqinə tələsmək düzgün deyil: "Təəssüf ki, bu gün insanlar saysız-hesabsız antibiotiklər və antiviral dərmanlar qəbul edirlər. Məsələn, vaxtilə qripin müalicəsində tətbiq olunan virus əleyhinə dərmanlardan COVID-in müalicəsində də istifadə edirlər, lakin nəzərə almırlar ki, bu gün COVID-ə təsir edən antiviral preparat yoxdur. Ona görə də özbaşına tətbiq edilən həmin preparatlar əlavə təsirlərə səbəb olur və xəstənin vəziyyətinin daha da ağırlaşmasına səbəb olur.

Dövlət xəstəxanasında müalicə olunanlara verilən dərmanlar həkim müayinəsi aparılmadan təyin edilmir. Evdə müalicə alan xəstələr poliklinikaya müraciət etdikdən sonra onun vəziyyəti qiymətləndirilir, yanaşı xəstəlikləri öyrənilir və buna uyğun olaraq da xəstəyə dərmanlar verilir. Həkim təyinatı olmadan özbaşına qəbul edilən dərmanlar əlavə təsirlərə səbəb olur. Yaxud bəzi xəstələr vitamin komplekslərinə üz tutur, məsələn, D vitamini qəbul edir. Doğrudur, COVID-19 xəstələrində D vitaminin səviyyəsi aşağı düşür, amma əvvəlcədən vitamin qəbul edilməsi onun gələcəkdə xəstələnməməsinə təminat vermir. Gələcək ağırlaşmaların baş verməməsi üçün yenə də mütləq həkimə müraciət edilməlidir".

## "Milan"dan 65 ilin rekordu

"Milan" İtaliya A Seriyasında son 65 ilin ən yaxşı startına imza atıb. Stefano Piolinin komandası ilk 10 turda 8 qələbə qazanıb. "Rassonyeri" ötən gecə 10-cu turda "Sampdoriya"nı 2:1 hesabı ilə məğlub edib. Qeyd edək ki, "qırmızı-qaralar"ın tarixində ən yaxşı start 1954/55 mövsümündə olub. Həmin vaxt Milanın eyniadlı təmsilçisi 10 oyunda 9 qələbə qazanıb. Bundan başqa, "Milan"ın çempionatdakı məğlubiyyətsizlik seriyası 22-yə çatıb. Komanda sonuncu dəfə martın 8-də "Cenoa"ya uduzub - 1:2.



## ELAN

Azərişıq ASC Nərimanov RETSİ tərəfindən rəis müavini Qubadov Atabəy Xoşsürət oğluna verilmiş iş vəsiqəsi ( yaxaya taxılan ) itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**